# ARDNŞ-nin Prezidentinin müraciəti



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Davamlı İnkişaf haqqında ilk Hesabatının geniş ictimaiyyətə təqdim olunması əlamətdar hadisədir. Azərbaycan şirkətləri arasında Davamlı İnkişaf haqqında Hesabatın dərc olunması istiqamətində ilk addımı ARDNŞ atır. Hesabatda Şirkətin davamlı inkişafın bütün istiqamətləri üzrə fəaliyyəti haqqında dolğun məlumat verilir. Burada ARDNŞ-nin fəaliyyətində davamlı inkişaf prinsiplərinin həyata keçirilməsi, 2011-ci ilin yekunları, Şirkətin qarşısında duran vəzifələr və gələcək planlar haqqında hərtərəfli informasiya əks olunmuşdur. **Hesabat əldə edilmiş təcrübənin sistemləşdirilməsinə, şəffaflığın artırılması və fəaliyyətimizin iqtisadi, ekoloji və sosial aspektlərinin idarə edilməsinin səmərəliliyinə növbəti bir töhfə kimi qiymətləndirilməlidir.**

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi altında uğurla davam etdirilən yeni neft strategiyası çərçivəsində davamlı inkişaf ARDNŞ-nin qlobal miqyasda müvəffəqiyyətlə fəaliyyət göstərən bir şirkətə çevrilməsinə zəmin yaratmışdır. Bu gün Azərbaycan iqtisadiyyatının inkişafında xüsusi rolu olan ARDNŞ ölkənin ən iri vergi ödəyicisi və işəgötürəni ictimai əhəmiyyətli qurumudur.

Dövlətimizin müdrik rəhbəri, möhtərəm Prezidentimiz İlham Əliyev cənabları strateji cəhətdən Şirkətin fəaliyyətinin əsasını təşkil edən bütün məsələləri diqqət mərkəzində saxlayır və icrasına şəxsən nəzarət edir. **Məhz həmin diqqət və qayğının nəticəsidir ki, hazırda Şirkətimiz sürətli artım və dəyişikliklər mərhələsini yaşayır, aparılan islahatlar və tətbiq olunan yeniliklər nəinki istehsal prosesində və fəaliyyətimizin iqtisadi komponentində, həmçinin Şirkət işçilərinin və ümümilikdə ölkə əhalisinin rifah halının yaxşılaşdırılması naminə həyata keçirilən sosial proqramlarda geniş əks olunur.**

ARDNŞ daim öz qarşısında mühüm vəzifələr qoymaqla və onların həyata keçirilməsi istiqamətində böyük nailiyyətlərə atıbdır. İki böyük qaz yatağının - “Ümid” və “Abşeron” yataqlarının kəşf edilməsi ölkəmizin təsdiq olunmuş qaz ehtiyatlarını əhəmiyyətli dərəcədə artırmış və ölkənin enerji potensialına beynəlxalq ictimaiyyətin marağını gücləndirmişdir. **Şirkət üçün daha bir strateji addım Transanadolu qaz boru kəmərinin (TANAP) tikintisi üzrə Azərbaycan-Türkiyə konsorsiumunun yaradılması olmuşdur.** Tikintisinin 2013-cü ildə başlanılması planlaşdırılan neft və qaz emalı və neft-kimya məhsullarının istehsalı kompleksinin yaradılması üzrə ən iri innovasiya layihəsinə start verilmiş, Sumqayıtda azot gübrəsi (karbamid) istehsalı üzrə ən son texnologiyalara əsaslanan zavodun inşasına başlanılmışdır.

Yeni maliyyə alətlərindən istifadə etmək, həmçinin beynəlxalq kapital bazarında investisiyalar cəlb etmək məqsədilə Şirkət istiqraz vərəqələrini – avrobondlar buraxmağı qərara almışdır. 2011-ci ildə ARDNŞ xaricdəki fəaliyyətini daha da genişləndirmiş, uğurlu işinin nəticəsi kimi 23%-dən çox xalis mənfəət əldə etmişdir. Neft və neft məhsullarının satışından əldə olunan gəlir isə iki dəfəyə yaxın artırılmışdır. ARDNŞ-nin həyata keçirdiyi ekoloji proqramlar çərçivəsində 2011-ci ildə çirklənmiş torpaqların bərpası prosesinin tempi əhəmiyyətli dərəcədə artırılmış, tullantıların idarəedilməsi prosesi nizamlanmış, səmt qazının utilizasiya dərəcəsi 91%-ə qədər artmışdır. Əhalinin rifah halının yaxşılaşdırılması, neftçilərin əmək şəraitinin və yaşayış səviyyəsinin yüksəldilməsi, peşəkarlığının artırılması və təhsilinin təkmilləşdirilməsi üçün bir sıra sosial proqramlar həyata keçirilmişdir.

2012-ci ildə biz qabaqcıl dünya praktikasına uyğun olaraq şəffaflığın və idarəetmənin səmərəliliyinin artırılması istiqamətində, o cümlədən davamlı inkişaf sahəsində fəaliyyətimizi genişləndirməyi planlaşdırırıq. Neft, qaz sənayesinin inkişafında əldə olunan nailiyyətlər, ölkəmizin enerji potensialının artırılması, eyni zamanda Azərbaycan neftçilərinin fədakar əməyi hesabatda əksini tapan göstəricilərin növbəti illərdə daha da yüksələcəyinə əminlik üçün ciddi əsas yaradır.





# Azərbaycanın neft sənayesinin inkişaf tarixi

Azərbaycan, Bakı öz nefti ilə dünyanın şirkətlərini, iş adamlarını XIX əsrin ikinci yarısından və XX əsrin əvvəllərindən cəlb etmiş və bir çox xarici şirkətlər burada uğurlu fəaliyyət göstərmiş, neft hasilatını təmin etmişlər.
Heydər Əliyev

Azərbaycan neft sənayesinin inkişaf tarixində bir neçə mərhələlər ayrılır ki, bunların da hər birinin özünəməxsus nailiyyətləri olmuşdur.

**I mərhələ - neftin mexaniki üsulla hasili (1847-1920-ci illər).**

1847-1848-ci illərdə Azərbaycanda Bibiheybət və Balaxanı yataqlarında mexaniki üsulla qazılmış quyulardan sənaye əhəmiyyətli neftin hasil edilməsi başlanmışdır. 1863-cü ildə Cavad Məlikov Bakıda kerosin zavodu tikdirdi və dünyada ilk dəfə neftayırma prosesində soyuduculardan istifadə etdi. 1867-ci ildə artıq 15 belə qurğu fəaliyyət göstərirdi.

Mexaniki üsulla quyuların qazılması texnologiyası təkmilləşdikcə Abşeron yarımadasında bir-birinin ardınca yeni neft yataqları aşkar edilir (Binəqədi, Pirallahı a., Suraxanı və s.), neft hasilatı artır, neft sənayesinin infrastrukturu və neftin emalı inkişaf etməyə başlayır. Həmin dövrdə Azərbaycanda milli burjuaziya formalaşır, Bakı şəhəri dünyanın sənaye mərkəzlərindən birinə çevrilir.

1873-cü ildə Bakıya gələn milliyətcə isveçrəli olan Robert Nobel, neftlə əlaqədar iqtisadi yüksəlişin şahidi olur. 1876-cı ildə Nobel qardaşları Bakıda neft hasilatı və emalı üzrə neft şirkəti yaradırlar. O vaxtlar bir sıra neft hasilatı mədənləri, neft emalı zavodları, neftdaşıyan tanker, barjlar, dəmir yolları, mehmanxanalar və s. Nobel qardaşlarına məxsus idi. 1876-cı ildə neft məhsullarına aksiz vergisi ləğv edildikdən sonra yeni neftayırma zavodları tikilib istismara verildi.

**1883-cü ildə Bakı-Batumi dəmir yolu tikilib istifadəyə verilir ki, bu da neft və neft məhsullarının Avropa ölkələrinə ixrac edilməsində mühüm əhəmiyyətə malik idi.** 1901-ci ildə Azərbaycanda 11 mln. t neft hasil edilmişdir ki, bu da o zamanlar dünya neft hasilatının 50%-dən çoxunu təşkil edirdi.

Neft sənayesinin milliləşdirilməsi ərəfəsində Azərbaycanda 270 neft hasilatı müəssisə, neft quyuların qazılması ilə məşğul olan 49 orta və kiçik firmalar, neftin emalı ilə məşğul olan 25 firma, 100-dən artıq mexaniki zavodlar (sexlər), təmir emalatxanaları və s. fəaliyyət göstərirdilər. Bu mərhələnin sonuncu illərində neft sənayesində ağı vəziyyət yaranmışdı (müharibə, inqilabi hərəkat və s. nəticəsində) və bu da neft hasilatının kəskin surətdə azalmasına gətirib çıxarmışdır.



**II mərhələ – neft sənayesinin milliləşdirilməsi (1921-1949-cu illər).**

1921-ci ildə neft hasilatı azalaraq 2,4 mln. tona enir. Sonrakı illərdə axtarış-kəşfiyyat işlərinin genişləndirilməsi ilə əlaqədar Azərbaycanda bir sıra yeni neft yataqları aşkar edilib istismara verilir və neft hasilatı ildən ilə artaraq 1941-ci ildə 23,6 mln. tona çatdırılır ki, bu da o dövrdə SSRİ-nin neft hasilatının 76%-ni təşkil edir.

1941-1945-ci illərdə müharibə dövründə neft avadanlıqlarının və neftçi mütəxəssislərin SSRİ-nin yeni neft rayonlarına (Türkmənistan, Tatarıstan, Başqırdıstan və SSRİ-nin digər şərqi rayonlarına) köçürülməsi ilə əlaqədar Azərbaycanda neft hasilatı təqribən iki dəfə azalır.

7 noyabr 1949-cu il tarixində Neft Daşlarında 1№-li quyu istismara daxil oldu və dənizdə neftçıxarmanın əsasını qoydu.

**III mərhələ – dənizdə neftçıxarmanın inkişafı (1950 – 1969-cı illər).**

“Neft Daşları” iri neft yatağının istismara verilməsi ilə Azərbaycanda neft sənayesinin inkişafının yeni mərhələsi başlanır. Bu dövrdə dəniz geoloji-kəşfiyyat işləri genişlənir,

bir-birinin ardınca neft və qaz yataqları aşkar edilib istismara verilir (Qum-dəniz, Bahar, Səngəçal-Divannı-dəniz-Bulla a-sı, Bulla-dəniz və s.), dəniz qazma işlərinin texnika və texnologiyası, dənizdə neftçıxarmanın infrastrukturu inkişaf etdirilir.

**IV mərhələ – neft-qaz sənayesinin inkişafı (1969 – 1994-cü illər).**

Bu tarixə kimi Xəzər dənizində istifadə olunan texniki vəsait yalnız dənizin dərinlikləri 40 m-ə qədər olan sahələrdə işləməyə imkan verirdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü nəticəsində Azərbaycana 75 növdə 400-dən çox ağır yük qaldıran kran gəmisi, boruçəkən gəmilər, seysmik, sərnişin və s. gəmi növləri gətirildi. Xəzərdə 2500 ton gücündə kran gəmisi işə başladı, eləcə də görülmüş digər tədbirlər nəticəsində dənizin 70 m dərinliyində olan sahələrdə geoloji-kəşfiyyat işləri aparmaq üçün imkan yarandı. Bu dövrdə yeni 8 neft və qaz yataqları kəşf edildi, neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. 1975-ci ildə neft və qazın ümumi hasilatı 27,1 mln. tona çatdırıldı. Həmin dövrdə 80-350 m dərinlikdə yatan neft ehtiyatları (Günəşli, Çıraq, Azəri və s.) kəşf edilmişdir.

**V mərhələ – neft-qaz sənayesinin inkişafının yeni mərhələsi (1994-cü il – indiyə qədər).**

1994-cü ilin sentyabr ayında hələ 80-ci illərdə kəşf edilmiş Azəri, Çıraq və Günəşlinin dərin sular hissəsinin istehsalı üçün dünyanın 8 ölkəsindən 12 məşhur neft şirkətlərinin iştirakı ilə iri (çıxarılan ehtiyatlara və sərmayələrin həcminə görə) "Əsrin müqaviləsi" imzalandı. Müstəqil Azərbaycanın neft sənayesinə irimiqyaslı xarici sərmayələrin cəlb edilməsi başlandı.










# Hesabat haqqında

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (bundan sonra "ARDNŞ" və ya "Şirkət") ilk dəfə olaraq fəaliyyətinin iqtisadi, sosial və ekoloji nəticələrini açıqlayan Davamlı inkişaf haqqında hesabat dərc etməyi qərara almışdır. **Hesabat hazırlanarkən, Şirkət davamlı inkişaf sahəsində beynəlxalq miqyasda tanınmış hesabat standartlarını rəhbər tutmuşdur.** Hesabat, "Hesabatlılıq üzrə Qlobal Təşəbbüsün" davamlı inkişaf sahəsində hesabatlar üzrə təlimatının G3 versiyasının (bundan sonra "GRI Təlimatı") tələblərini nəzərə almaqla hazırlanmışdır və "C" tətbiq səviyyəsinə uyğundur (Hesabatın GRI Təlimatına uyğunluq cədvəlinə bax).

Şirkət Hesabatı öz fəaliyyətinin şəffaflığının artırılması və maraqlı tərəflərlə dialoqun inkişaf etdirilməsi məqsədilə dərc edir. Məlumatların hazırkı Hesabatın daxilində toplanması Şirkətə fəaliyyət göstərdiyi ərazilərin və ümumiyyətlə ölkənin davamlı inkişafı kontekstində iş nəticələrinin təhlilini aparmaq, eləcə də öz fəaliyyətini sosial məsuliyyətin əsas istiqamətləri üzrə planlaşdırmaq və bu fəaliyyətə effektiv nəzarət etmək imkanını yaradır.

**Hesabatın əhatə etdiyi məsələlər Şirkətin illik hesabatlarında, korporativ veb səhifəsində və kütləvi informasiya vasitələrində bu və ya digər şəkildə əvvəllər də nəzərdən keçirilirdi.** Lakin indi Şirkət bu materialı ilk dəfə bir yerdə toplayıb, qeyri-maliyyə məlumatlarını nisbətən daha sistemli, tam və dəqiq şəkildə açıqlayır və onu maraqlı tərəflərin geniş dairəsinə ünvanlayır.

Hesabat dövrü olaraq bir təqvim ili qəbul edilir. Nəticə etibarı ilə, Hesabat ARDNŞ-nin 2011-ci ilin 1 yanvarından 31 dekabrına qədər müddətdə fəaliyyət nəticələrini əhatə edir. Şirkət hər il davamlı inkişaf sahəsində fəaliyyətinin nəticələri üzrə hesabatların dərc edilməsini planlaşdırır.

Hesabat ARDNŞ-nin baş ofisi və onun struktur bölmələri haqqında məlumatları, eləcə də Şirkətin davamlı inkişaf sahəsində fəaliyyətinin nəticələrinə aid olan müxtəlif mövzuları əhatə edir. Hesabatın məzmununu müəyyən edərkən Şirkət GRI Təlimatında müəyyən edilmiş əhəmiyyətlilik, maraqlı tərəflərin əhatə olunması, davamlı inkişaf və tamlıq prinsiplərinə əsaslanmışdır.

Hesabatda açıqlanması tələb olunan əhəmiyyətli mövzuları müəyyən etmək üçün aşağıdakı prosedurlar həyata keçirilmişdir:

• məsul bölmələrin rəhbərləri ilə müsahibələr;

•analoji şirkətlərin qeyri-maliyyə hesabatlarının məzmununun analizi;

• informasiya sahəsinin analizi;

•daxili normativ sənədlərin analizi.

Hesabatın keyfiyyətini təmin etmək məqsədilə Şirkət GRI Təlimatında nəzərdə tutulmuş tarazlıq, müqayisəlilik, dəqiqlik, vaxtlılıq, aydınlıq və etibarlılıq prinsiplərini rəhbər tutmuşdur.





# Şirkət haqqında

"Neft-qaz yataqlarının kəşfiyyatına təzə başlayanda biz təsəvvür də edə bilməzdik ki, nə vaxtlarsa Azərbaycanın qazı Avropa bazarlarında satılacaqdır", - İlham Əliyev - Azərbaycan Respublikasının Prezidenti.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, Azərbaycan Respublikası Prezidentinin 3 dekabr 1991-ci il tarixdə imzaladığı Fərmanla "Azərineft" Dövlət Konserni yaradılmışdır. Neft sərvətlərindən istifadəni vahid dövlət siyasəti əsasında həyata keçirmək, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirmək, yanacaq-enerji kompleksinin inkişafını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 13 sentyabr 1992-ci il tarixli Fərmanı ilə "Azərineft" Dövlət Konserni və "Azərneftkimya" İstehsalat Birliyinin bazasında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti yaradılmışdır. **Hazırda ARDNŞ ölkənin neft sənayesinin lideridir və Azərbaycanda neft hasilatının təxminən 20%-nə nəzarət edən Xəzər regionunda aparıcı şaquli inteqrasiyalı neft şirkətidir**. Şirkət fəaliyyət göstərdiyi regionlarda ən iri işəgötürəndir. 2011-ci ildə onun işçi heyətinin sayı 77 min nəfərdən çox olmuşdur.

Şirkətin 100%-i dövlətə məxsusdur. Azərbaycan hökuməti ARDNŞ-nin əsas rəhbərlərini təyin edir və onun strategiyasını müəyyən edir. Bununla bərabər, cari fəaliyyət Şirkət səviyyəsində idarə edilir. 31 dekabr 2011-ci il tarixinə Şirkətin nizamnamə kapitalı 1,059 milyon manat təşkil etmişdir.

Şirkətin əsas fəaliyyət növlərinə neft və qaz yataqlarının işlənməsi, qaz və neft məhsullarının hasilatı, emalı və xarici bazarlarda satışı, habelə digər şirkətlər tərəfindən idarə edilən müxtəlif qaz və neft layihələrində pay iştirakı daxildir.

Şirkətə hüquqi şəxs statusu olan struktur vahidləri (100% törəmə müəssisələr) daxildir. Onların arasında istehsalat birlikləri, zavodlar, trestlər, donanma və institutlar vardır. ARDNŞ-nin Bakıda yerləşən baş ofisi bu struktur vahidlərinin fəaliyyəti üzrə idarə və maliyyə nəzarətini həyata keçirir. Bundan əlavə, ARDNŞ-nin daxilində Böyük Britaniya, ABŞ, BƏƏ, İtaliya və sair ölkələrin şirkətləri ilə bir sıra birgə müəssisələr, eləcə də alyanslar yaradılmışdır.

Şirkətə məxsus karbohidrogen yataqlarının işlənməsi və istismarı "Azneft" İstehsalat Birliyi tərəfindən həyata keçirilir. "Azneft" İstehsalat Birliyinin tərkibinə 7 NQÇİ və iki iriləşdirilmiş neft mədəni daxildir. Neft və qaz hasilatı əsasən Azərbaycanın quru ərazisində və Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Günəşli, Neft Daşları, Bibiheybət və s. kimi yataqlarında aparılır. 2010-cu ildə Şirkət 200 milyard m³ qaz ehtiyatı və 30-40 milyon ton kondensatı olan yeni iri "Umid" qaz-kondensat yatağını kəşf etmişdir.

**ARDNŞ dənizdə və quruda yataqlar qrupunu əhatə edən bir sıra hasilatın pay bölgüsü sazişlərinin iştirakçısıdır.** Bu



yataqların arasında Azəri-Çıraq-Günəşli (11%), Abşeron (40%), Araz-Alov-Şərq (15%), Bahar-Qum-Dəniz (20%), Kürşəngi-Qarabağlı (50%) və s. vardır.

Qazın saxlanılması, bölüşdürülməsi və ölkə daxilində, eləcə də İran, Gürcüstan və Rusiyaya nəqli Şirkətin tərkibinə 2009-cu ildə daxil olmuş "Azəriqaz" İB tərəfindən həyata keçirilir. Bundan əlavə, ARDNŞ xarici partnyorlarla birlikdə neftin və qazın nəqli üzrə bir sıra birgə layihələrdə iştirak edir. Xüsusi ilə də Şirkətin Cənubi Qafqaz qaz boru kəməri layihəsində 10% və Bakı-Tbilisi-Ceyhan neft boru kəməri layihəsində 25% payı vardır. **2011-ci ilin dekabr ayında Türkiyə və Azərbaycan arasında 80% payı ARDNŞ-ya məxsus olan Trans-Anadolu qaz kəmərinin tikintisi üzrə konsorsiumun yaradılmasına dair razılaşma imzalandı**. Bu razılaşma qazı Azərbaycandan Türkiyə və Avropa bazarlarına ixrac etmək məqsədilə Cənubi qaz dəhlizi marşrutu üzrə yeni boru kəmərinin tikintisinin başlamasına imkan verir.

Neftin və qazın emalı Qaz Emalı Zavodu (QEZ), Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu (BNEZ) və "Azərneftyağ" NEZ-də həyata keçirilir. Hal-hazırda ARDNŞ neftin, qazın emalı və neft-kimya məhsullarının emalı üzrə yeni müasir kompleksin yaradılması ilə bağlı iri layihə üzərində çalışır. Yeni neft-kimya kompleksin yaradılması, illik istehsal gücü 10 milyon ton neft olan NEZ-in, eləcə də istehsal gücü 10 milyard kubmetr qaz olan QEZ-in inşasını nəzərdə tutur. Bu kompleksin yaradılması Avro-5 standartına cavab verən bütün markalı yanacaqların, eləcə də dünya standartlarına cavab verən sürtgü yağı və bitum, polietilen və polipropilen kimi neft-kimya məhsullarının buraxılmasını həyata keçirməyə imkan verəcək. Kompleksin 2020-ci ildə istismara verilməsi planlaşdırılır. Bundan əlavə, ARDNŞ-nin mövcud emal obyektlərinin yenilənməsi və müasirləşdirilməsi işləri aparılır.

Şirkətin fəaliyyətinin daha bir istiqaməti neft-kimya istehsalatıdır. 2010-cu ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Neft-qaz emalı və neft-kimya sənayesində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi haqqında" Sərəncam verilmişdir. Bu Sərəncamla "Azərkimya" İB ARDNŞ-nin tərkibinə daxil olmuşdur. Şirkətin ən prioritet məqsədlərindən biri bu istehsalat birliyinin fəaliyyətini optimallaşdırmaq və neft-kimya sənayesinin vahid inkişaf konsepsiyasını müəyyən etməkdir. Bu məqsədə nail olmaq üçün ARDNŞ "Azərkimya" İB-nin ərazisində vahid kimya sənaye parkına birləşdirilmiş kiçik və orta müəssisələr kompleksinin yaradılmasını planlaşdırır. Bu parkın fəaliyyəti polietilen və polipropilendən alınan dünya standartlarına cavab verən yekun məhsulun buraxılmasına yönəldiləcəkdir. Bundan əlavə, 2011-ci ildə «2008—2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»na uyğun olaraq Sumqayıtda azot gübrələri və karbamidin istehsalı üzrə müasir zavodun tikintisi başlamışdır.

ARDNŞ-nin tərkibinə həmçinin Şirkətin əsas fəaliyyəti üçün yardımçı funksiyalarını həyata keçirən xidmət müəssisələri və struktur vahidləri daxildir. Belə ki, Şirkətin balansında ARDNŞ-nin və Xəzərin şelfində işləyən iri xarici şirkətlərin dəniz əməliyyatlarına kömək göstərən Xəzər dəniz neft donanması vardır. 2011-ci ildə ARDNŞ-nin iştirak payı 65% təşkil edən yeni gəmiqayırma




** Azot gübrələri və karbamidin istehsalı üzrə zavodun tikintisi 2011-ci ildə başlamışdır.*
*** Bakı Ali Neft Məktəbi 2011-ci ildə açılmışdır.*
**** Hesabatın hüdudlarına daxil deyil.*

# ARDNŞ-nin fəaliyyətinin coğrafiyası



1 Canada
2 USA
3 Brazilia
4 Chilie
5 Sweden
6 United Kingdom
7 Germany
8 France
9 Belgium
10 Latviya
11 Lithuina
12 Spain
13 Portugalia
14 Italy
15 Bulgariya
16 Romania
17 Groatia
18 Ukraine
19 Belarus
20 Turkey
21 Syria
22 Iraq
23 Israel
24 Tunisia
25 Algeria
26 Morocco
27 Nigeria
28 Egypt
29 Sudan
30 India
31 Afghanistan
32 Turkmenistan
33 Uzbekistan
34 Kazakhstan
35 Tadjikistan
36 Mongolia
37 China
38 Thailand
39 Benin & Togo
40 South Korea
41 Taiwan
42 Singapore
43 Malaysia
44 Indonesia
45 Puerto Rico
46 Georgia

zavodunun tikintisinə başlanılmışdır. Yeni zavodun texnoloji avadanlığı dənizdəki yataqlara xidmət göstərən köməkçi gəmilərdən tutmuş tankerlərə qədər müxtəlif konfiqurasiyalı və müxtəlif tonnajlı gəmiləri istehsal etməyə, eləcə də gəmilərin lazımi təmirini və yenidən qurulmasını həyata keçirməyə imkan verəcək.

Azərbaycanda istehsalat obyektlərinin inkişaf etdirilməsindən əlavə ARDNŞ xaricdə də aktiv fəaliyyət göstərir. Şirkətin ticarət nümayəndəlikləri Avstriya, İsveçrə, Böyük Britaniya, Türkiyə, Gürcüstan, Almaniya, Rumıniya, Qazaxıstan, İran və Ukraynada mövcuddur. Şirkət Türkiyədə neft-kimya məhsullarının əsas istehsalçısı olan Petkim şirkətinin səhmlərinin nəzarət paketinə sahibdir. Bundan əlavə, ARDNŞ-də Gürcüstan bazarında neft məhsullarının topdan və pərakəndə satışını həyata keçirən, habelə təbii qazın idxalı, alınması və satılması, Kulevidə (Gürcüstan) qazın paylanması şəbəkələrinin və neft terminalının idarə edilməsi ilə bağlı bütün növ işləri həyata keçirən SOCAR Energy Georgiya bölməsi yaradılmışdır.

2011-ci ildə Şirkət öz beynəlxalq fəaliyyətinin genişləndirilməsinə davam etmişdir və buna uyğun olaraq İsveçrə bazarında neft məhsullarının və mayeləşdirilmiş qazın pərakəndə satışı üzrə geniş şəbəkəyə malik olan ESSO Switzerland şirkətinin aktivləri alınmışdır. Ölkənin daxilində, eləcə də Ukrayna, Gürcüstan və Rumıniyada pərakəndə satış şəbəkələrinin inkişafında böyük nailiyyətlər əldə olunmuşdur. Eyni zamanda ARDNŞ Kulevidə qazın mayeləşdirilməsi üzrə zavodun və Fuceyra limanında (BƏƏ) neft doldurma terminalının tikintisinə başlamışdır. 2011-ci ildə

ARDNŞ öz istehsalat göstəricilərini 2010-cu il səviyyəsində qoruyub saxlamışdır. ARDNŞ köhnə yataqları istismar etdiyinə görə son illərdə neft hasilatının tempi aşağı düşmüşdür. Eyni zamanda, yeni qaz yataqlarının kəşf edilməsini nəzərə alaraq ARDNŞ qaz hasilatının 2025-ci ilədək iki dəfəyə qədər artırılmasını proqnozlaşdırır. 2011-ci il üzrə MHBS-na uyğun olaraq konsolidə edilmiş maliyyə nəticələri 2010-cu ilin nəticələrindən artıq olmuşdur ki, bu da dünya bazarında neft və neft məhsullarının əlverişli qiymət konyunkturası ilə izah olunur. Şirkətin fəaliyyətinin strukturu, xüsusiyyəti, eləcə də maliyyə və istehsalat göstəriciləri ilə Şirkətin internet səhifəsində , habelə onun Maliyyə və İllik hesabatlarında daha ətraflı tanış ola bilərsiniz.

**Şirkətin 2011-ci il üzrə iqtisadi nəticələrinin göstəriciləri[3]**

| İqtisadi nəticələrin göstəriciləri, min manat | 2011 |
|---|---|
| **Şirkətin ümumi gəliri** | 4 258 121 |
| **Əməliyyat xərcləri** | 390 142 |
| **İşçilərinə əmək haqqı və digər ödənişlər və imtiyazlar** | 503 888 |
| **Kapitalın təchizatçılarına ödənişlər** | 59 372 |
| **Dövlətə ayırmalar** | 364 219 |
| **Sosial investisiyalar və xeyriyyəçilik** | 818 612 |

**Şirkətin 2009-2011-ci illər üzrə istehsalat göstəriciləri[4]**

| | 2009 | 2010 | 2011 |
|---|---|---|---|
| **Neftin isbat edilmiş ehtiyatları, min ton (ilin əvvəlinə)** | 109 762 | 85 715 | 78 741 |
| **Qazın isbat edilmiş ehtiyatları, mln m$^3$** | 43 623 | 35 092 | 30 454 |
| **Neft hasilatı, min ton** | 8 543 | 8 460 | 8 401 |
| **Qaz hasilatı, mln m$^3$** | 6 903 | 7 179 | 7 084 |
| **Neftin emalı, mln ton** | 6 032 | 6 220 | 6 326 |
| **Neft məhsulları və neft-kimya məhsullarının istehsalı, mln ton** | 5 303 | 5 716 | 5 725 |

*http://www.socar.az*

*[2] Məlumatlar ARDNŞ-nin Baş ofisi və onun struktur vahidlərinə aiddir. Şirkətin MHBS-na uyğun birləşdirilmiş maliyyə hesabatları aşağıdakı ünvanda mövcuddur: http://new.socar.az/socar/az/economics-and-statistics/economics-and-statistics/socar-reports.*

*[3] Məlumatlar ARDNŞ-nin Baş ofisi və onun struktur vahidlərinə aiddir. Alyansları və birgə müəssisələri daxil edən məlumatlar Şirkətin İllik hesabatlarında mövcuddur.*

# ARDNŞ-nin təşkilati strukturu




* Azot gübrələri və karbamidin istehsalı üzrə zavodun tikintisi 2011-ci ildə başlamışdır.
** Bakı Ali Neft Məktəbi 2011-ci ildə açılmışdır.
*** Hesabatın hüdudlarına daxil deyil.

# ARDNŞ-nin rəhbərlik



**Rövnəq Abdullayev**
ARDNŞ prezidenti



**Yusifzadə Xoşbəxt**
Geologiya, geofizika və yataqların işlənməsi üzrə birinci vitse-prezident



**Qurbanov Rəhman**
Neftin, qazın hasilatı və nəqli üzrə vitse-prezident



**Məmmədov David**
Emal üzrə vitse-prezident





**Qasımov Süleyman**
İqtisadi məsələlər üzrə vitse-prezident



**İsmayılov Mikayıl**
Vitse-prezident



**Məmmədov Xalik**
Kadr, Rejim və İnformasiya texnologiyaları üzrə vitse-prezident



**Nəsirov Elşad**
Sərmayələr və market-inq üzrə vitse-prezident



**Hüseynzadə Rəfiqə**
Ekologiya üzrə vitse-prezident



**Qəhrəmanov Tofiq**
Strateji inkişaf üzrə vitse-prezident



**Bədəlov Bədəl**
Sosial məsələlər üzrə vitse-prezident



# Davamlı inkişafa yanaşma

**Missiya**

• Qabaqcıl və ekoloji təmiz texnologiyalardan istifadə edərək Azərbaycan Respublikasının yanacaq-enerji təhlükəsizliyini, neft-qaz və neft-kimya sənayesinin inkişafı üzrə strateji maraqları təmin etmək.

• Azərbaycanın elmi-texniki, iqtisadi və intellektual potensialının artırılmasına dəstək olmaq.

• Regional və beynəlxalq enerji layihələrində həlledici mövqe tutmaq.

• Karbohidrogen ehtiyatlarının və emal məhsullarının daxili və xarici bazarlarda satışından maksimal mənfəət əldə etmək.



**Məramımız**

Əməliyyat effektivliyi, sosial və ekoloji məsuliyyəti qabaqcıl təcrübəyə uyğun dünyanın şaquli inteqrasiya olunmuş iri beynəlxalq neft-qaz şirkətinə çevrilməkdir.

ARDNŞ-nin iqtisadi və sosial siyasəti Azərbaycanın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında 1990-cı illərin əvvəllərində işlənib hazırlanmış Neft strategiyasına uyğun olaraq aparılır. Neft strategiyası – ölkənin enerji ehtiyatlarının iqtisadi dövriyyəyə cəlb edilməsini, aparıcı xarici neft şirkətləri ilə qarşılıqlı fayda gətirən əməkdaşlığı, Xəzər dənizinin Azərbaycan sektorunda mövcud zəngin karbohidrogen ehtiyatlarının işlənməsi və hasilatı, eləcə də onların dünya bazarlarına ixracını nəzərdə tutan uzunmüddətli milli inkişaf proqramıdır. Neft strategiyasına uyğun olaraq enerji ehtiyatlarının satışın- dan əldə olunmuş vəsaitlər ölkə iqtisadiyyatının digər sahələrinin və qeyri-neft sahəsinin inkişafına səbəb olmalıdır ki, nəticədə cari və gələcək nəsillərin rifahını təmin etsin.

**2011-ci ildə Şirkətdə 2025-ci ilə qədər Strateji inkişafın kompleks planı işlənib hazırlanmışdır ki, bu da Azərbaycanın Neft strategiyasının ayrılmaz hissəsi və məntiqi davamıdır.**

Strateji inkişafın kompleks planı Şirkətin fəaliyyətinin bütün sahələrini əhatə edir və əldə edilmiş göstəricilərinin yaxşılaşdırılması, ARDNŞ-nin fəaliyyətinin beynəlxalq standartlara və ən yaxşı təcrübəyə uyğunluğunun təmin edilməsi, eləcə də ölkənin sosial-iqtisadi inkişafının dəstəklənməsində Şirkətin rolunun artırılması məqsədlərini müəyyən edir. Kompleks planda neft-qaz sektorunun Azərbaycanın iqtisadiyyatına təsiri təhlil olunur, onun inkişafına dair addımlar planlaşdırılır, habelə mövcud problemlərin aradan

qaldırılmasının müxtəlif yolları nəzərdən keçirilir. Kompleks planda ölkədə və dünyada sürətlə dəyişən ekoloji vəziyyətə xüsusi diqqət yetirilir. Belə ki, bu planda istehsalat fəaliyyəti ilə bağlı ətraf mühitə mənfi təsirin azaldılması istiqamətləri, o cümlədən yeni, ekoloji təmiz istehsalat obyektlərinin yaradılması, yataqların işlənməsi sahələrində yaradılması ətraf mühitin münasib vəziyyətinin bərpa edilməsi məsələləri nəzərdən keçirilir.

**Korporativ idarəetmə.** Şirkət Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə ARDNŞ-nin Prezidenti vəzifəsinə təyin edilmiş şəxs tərəfindən idarə olunur. 2005-ci ildən bu vəzifəni Rövnəq Abdullayev tutur. ARDNŞ-nin kollegial icra orqanı ARDNŞ -nin Prezidenti və 10 vitse-prezidentin daxil olduğu ARDNŞ-nin Şurasıdır.

ARDNŞ-nin fəaliyyətini tənzimləyən daxili sənəd 2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq olunmuş Nizamnamədir.

Nizamnamənin mətni Şirkətin internet saytında mövcuddur .

Mühüm məsələlərin ilkin baxılması və qərarların qəbul edilməsi üçün tövsiyələrin hazırlanması məqsədilə ARDNŞ-nin Prezidentinin yanında aşağıdakı komitələr yaradılmışdır:

- Şirkəttin Audit üzrə komitə,
- Risklər üzrə komitə,
- Satınalmalar üzrə komitə,
- Kadrların idarə edilməsi üzrə komitə,
- İnformasiya təhlükəsizliyi komitəsi.

Şirkətdə həmçinin bir sıra komissiyalar, o cümlədən Korrupsiyaya qarşı fəaliyyət üzrə komissiya, Sosial yardım üzrə komissiya və şirkətin idarəetmə strukrturuna daxil olan qurumlarda əmək normalarının, onların təşkilatı strukturunun gəlir və xərclər smetasının müəyyən edilməsi üzrə daimi fəaliyyət göstərən komissiya.

**Operativ əməliyyat qərarları ARDNŞ-nin vitse-prezidentləri tərəfindən qəbul olunur.** Şirkətin davamlı inkişaf sahəsində fəaliyyəti bir neçə vitse-prezident tərəfindən idarə olunur. Belə ki, Şirkətin əməyin mühafizəsi və sənaye təhlükəsizliyi sahəsində fəaliyyətini birinci vitse-prezident Xoşbəxt Yusifzadə idarə edir. Əməyin mühafizəsi və sənaye təhlükəsizliyi idarəsi onun tabeliyindədir. İqtisadi məsələlər üzrə vitse-prezident Suleyman Qasımovdur. İqtisadiyyat və Uçot İdarəsi, BRP sistemlərinin analitik uçotları şöbəsi, risklərin idarə olunması şöbəsi, büdcə və idarəetmə hesabatlarının hazırlanması şöbəsi ona tabedir. Şirkətin ətraf mühitin mühafizəsi sahəsində fəaliyyətinə nəzarət ekologiya üzrə vitse-prezident Rəfiqə Hüseynzadə tərəfindən həyata keçirilir. Onun tabeçiliyinə Ekologiya idarəsinin struktur bölməsi və müəssisə səviyyəsində bütün mövcud ekoloji şöbələrin tabe olduğu Ekoloji layihələrin idarəedilməsi şöbəsi daxildir. Şirkətin sosial fəaliyyəti və yerli icmalarla qarşılıqlı əlaqə ilə bağlı istiqamətin idarə edilməsi sosial məsələlər üzrə vitse-prezident Bədəl Bədəlov tərəfindən həyata keçirilir. Şirkətdə insan resurslarının idarə edilməsi kadrlar, rejim və informasiya texnologiyaları üzrə vitse-prezident Xaliq Məmmədov tərəfindən həyata keçirilir. Kadrların idarə edilməsi, ətraf mühitin mühafizəsi, sənaye təhlükəsizliyi və əməyin mühafizəsi ilə bağlı məsələlər üzrə ətraflı məlumat Hesabatın müvafiq fəsillərində verilmişdir.

Hazırda ARDNŞ intensiv



artım mərhələsindədir və maraqlı tərəflərlə qarşılıqlı əlaqənin keyfiyyəti və açıqlığı üzrə sahənin aparıcı beynəlxalq şirkətləri səviyyəsinə qaldırmağa çalışır. Son illərdə Şirkət tərəfindən korporativ idarəetmə sisteminin təkmilləşdirilməsi, o cümlədən davamlı inkişaf sahəsində fəaliyyətin səmərəliyinin artırılması üzrə böyük işlər görülmüşdür. Belə ki, ətraf mühitin idarə edilməsi sistemi təkmilləşdirilmiş, risklərin idarə olunması sisteminin fəaliyyəti təmin olunmuş, eləcə də korporativ etikanın inkişafı üzrə tədbirlər görülmüşdür.

Şirkətin davamlı inkişafın bütün istiqamətləri üzrə fəaliyyəti haqqında məlumatın birləşdirilməsi və təhlili, eləcə də bu sahədə fəaliyyətin optimallaşdırılması imkanlarının axtarılması üçün ARDNŞ davamlı inkişaf haqqında hesabatların buraxılması haqqında qərar qəbul etmişdir və gələcəkdə qeyri-maliyyə hesabatlar sistemini inkişaf etdirməyi planlaşdırır. Bunun üçün 2012-ci ildə davamlı inkişaf haqqında hesabatların hazırlanması standartının işlənib hazırlanması və tətbiq edilməsi, funksional istiqamətlər üzrə məlumatların təqdim edilməsi üçün rəsmi məsuliyyətin müəyyən edilməsi, davamlı inkişafın vacib aspektləri üzrə məlumatların toplanması və təhlili sisteminin qaydaya salınması planlaşdırılır.




**Risklərin idarə edilməsi və daxili audit. Şirkətin fəaliyyəti istehsal, maliyyə, hüquqi, ekoloji və sosial xarakterli risklərin geniş spektrinin mövcudluğu ilə bağlıdır**. Bu risklərin mövcudluğu Şirkətin qarşısına qoyduğu strateji məqsədlərə çatmasına təsir etməməlidir. Buna görə də, yaranan risklərin vaxtlı-vaxtında müəyyən edilməsi və minimuma endirilməsi məqsədilə ARDNŞ 2008-ci ildə COSO Enterprise Risk Management konsepsiyasına uyğun olaraq risklərin idarə olunması sisteminin tətbiq edilməsi işinə başlamışdır. Risklərin idarə olunması üzrə məsul Kollegial orqan iqtisadi məsələlər üzrə vitse-prezident Süleyman Qasımovun sədr qismində çıxış etdiyi Risklər üzrə komitədir. Şirkətin bütün struktur bölmələrində risklərin əməliyyat funksiyalarının idarə edilməsi üçün müvafiq şöbələr fəaliyyət göstərir. Şirkətdə aylıq əsasla keçirilən monitorinqin nəticələrinə uyğun olaraq yenilənən Korporativ risklərin xəritəsi işlənib hazırlanmışdır. Risklərin təsnifatı Şirkətdə işlənib hazırlanmış normativ sənədlərə uyğun olaraq aparılır və davamlı inkişafın müxtəlif istiqamətləri üzrə riskləri əhatə edir.

**Şirkətin idarəetmə nəzarətinin ayrılmaz hissəsi daxili auditdir**. ARDNŞ-nin bu sahədə fəaliyyəti biznes proseslərinin təkmilləşdirilməsinə, mümkün risklərin və onların azaldılmasının optimal metodlarının aşkar edilməsinə, eləcə də işgüzar partnyorların Şirkətin idarə orqanlarına yüksək etibarlılıq səviyyəsinin təmin edilməsinə yönəlir. Daxili audit iqtisadi təhlilin həyata keçirilməsi, maliyyə strategiyasının formalaşması və Şirkətdə idarəetmə qərarlarının qəbul edilməsi zamanı mühüm yer tutur.

2007-ci ilin may ayında qüvvəyə minmiş Azərbaycan Respublikasının “Daxili audit haqqında” Qanununa uyğun olaraq ARDNŞ-da Audit komitəsi və Audit departamenti fəaliyyət göstərir, eləcə də əsas məqsədləri, prinsipləri və funksiyaları müəyyən edən Daxili audit siyasəti təsdiq olunmuş-

dur. Audit departamentinin rəisi ARDNŞ-nin Prezidenti tərəfindən təyin olunur və Şirkətdə daxili audit proseslərinin təşkil edilməsinə və koordinasiyasına görə məsuliyyət daşıyır. Daxili audit keçirilərkən mütəxəssislər xüsusi işlənib hazırlanmış metodologiyanı rəhbər tuturlar. Audit departamentinin rəisi işin nəticələri üzrə Şirkətin rəhbərliyinə illik hesabat təqdim edir. Bu hesabatda daxili nəzarət və korporativ idarəetmə sistemlərinin səmərəliliyinin qiymətləndirilməsi göstərilir.

Hazırda Şirkətdə risklərin idarə olunması və daxili audit sistemlərinin inkişafı ilə yanaşı maliyyə nəzarətinin gücləndirilməsi, şəffaflığın artırılması və biznes proseslərinin avtomatlaşdırılması məqsədilə 2009-cu ildən SAP qərarları tətbiq olunur. Bundan əlavə, daxili korrupsiyaya qarşı prosedurların tətbiqi üzrə işə başlanılmışdır.



**orporativ etika**

Korporativ etika ARDNŞ-nin korporativ mədəniyyətinin tərkib və ayrılmaz hissəsidir. Öz fəaliyyətində Şirkət kollektivdə, müştərilər, işgüzar partnyorlar, dövlət orqanları, ictimaiyyət və rəqiblərlə qarşılıqlı əlaqələr zamanı milli və beynəlxalq qanunvericiliyin tələblərini rəhbər tutur və etik davranış standartlarına riayət etməyə çalışır. Fəaliyyətini daim vicdanlı və sosial yönümlü şəkildə həyata keçirməklə Şirkət maraqlı tərəflərin etibarını qazanıb saxlamaq yolu ilə nail olunur.

2009-cu ildə Şirkətdə maliyyə əməliyyatlarında iştirak edən ARDNŞ-nin və onun törəmə müəssisələrinin mütəxəssislərini əhatə edən Mühasiblərin etika məcəlləsi təsdiq olun-



**Korrupsiyaya qarşı siyasət və Biznes etikası məcəlləsi**

ARDNŞ-nin Korrupsiyaya qarşı siyasəti və Biznes etikası məcəlləsi Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə, beynəlxalq və xarici korrupsiyaya qarşı qanunvericiliyin tələblərini, eləcə də beynəlxalq təşkilatların tövsiyələrini və korporativ idarəetmə sahəsində aparıcı dünya təcrübəsini nəzərə almaqla, Şirkətin mövcud daxili sənədlərinin müddəalarına uyğun olaraq işlənib hazırlanmışdır. Korrupsiyaya qarşı siyasət korrupsiya fəaliyyətinə müqavimət və korrupsiyaya qarşı qanunvericiliyinin normalarına riayət edilməsi sahəsində Şirkətin başlıca prinsip və tələblərini müəyyən edən baza sənədidir.

Siyasət korrupsiyaya qarşı mədəniyyətin səviyyəsinin artırılması, işgüzar nüfuzun qorunub saxlanılması və fəaliyyətin aşkarlığının təmin edilməsi məqsədilə Şirkətin korrupsiya fəaliyyətini qəbul etməməyini və onun fəaliyyətin yüksək etika standartlarına uyğun aparılmasına sədaqətliliyini əks etdirir, eləcə də Şirkətin və onun struktur bölmələrinin fəaliyyətində korrupsiya risklərinin minimuma endirilməsi üzrə tədbirləri təsvir edir.

Biznes etikası məcəlləsi korporativ mədəniyyətin təkmilləşdirilməsi, korporativ idarəetmənin aparıcı təcrübəsinə riayət edilməsi və Şirkətin işgüzar nüfuzunun lazımi səviyyədə saxlanılması üçün Şirkətin, onun Prezidentinin və işçilərinin aşkar və doğru fəaliyyətin yüksək etik standartlarına sadiq olmasını əks etdirir. Məcəllə nəinki kollektivdə etik davranış standartlarını müəyyən edir və işgüzar partnyorlar və rəqiblərlə münasibətləri nizama salır, hətta Şirkətin davamlı inkişaf prinsiplərinə sadiq qalmasını göstərir, o cümlədən Şirkətin işçilərə bərabər imkanların verilməsinə və ayrı-seçkiliyə yol verilməməsinə dair mövqeyini möhkəmləndirir.

muşdur. Etika qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi, eləcə də Beynəlxalq Mühasiblər Federasiyasının (BMF) Peşəkar mühasiblərin etik normaları məcəlləsi əsasında işlənib hazırlanmışdır. Etika qaydalarına əsasən mühasib fəaliyyəti ilə məşğul olan Şirkətin mütəxəssisi qərəzsizlik, səriştə və lazımi səliqə, məxfilik, peşəkar davranış və müvafiq peşəkar qaydalar və standartlar kimi prinsiplərə riayət etməlidir. Etika qaydaları həmçinin etik münaqişələrin və ziddiyyətlərin yarandığı halda mütəxəssisin davranışı qaydalarını müəyyən edir.

ARDNŞ-nin korporativ etikasının vacib istiqaməti korrupsiya və korporativ fırıldaqçılığa müqavimətdir. 2011-ci ildə Şirkət bu məsələlərin idarə edilməsinin səmərəsini artırmaq məqsədilə bir sıra addım atmışdır. Şirkətdə mövcud biznes proseslər korrupsiya nöqteyi-nəzərdən təhlil olunmuşdur ki, bu da Şirkətdə təkmilləşdirilməli olan daxili prosedurları aşkar etməyə və korrupsiya riskinin indikatorları siyahısını işləyib hazırlamağa imkan vermişdir. Ümumiyyətlə, Şirkətdə dəyərin yaradılması zəncirinin səmərəsini artırmaq üçün qarşı-tərəflərlə münasibətlərin yaradılması məsələlərinə xüsusi diqqət yetirilirdi. Eyni zamanda, xeyriyyə məqsədləri üçün pul vəsaitlərinin ayrılması prosedurları təkmilləşdirilmiş və etik və korrupsiyaya qarşı tələblərə riayət edilməsi üzrə pozuntular haqqında məlumatlandırma sisteminin tələbləri genişləndirilmişdir. Bunun üçün



bir sıra köməkçi sənədlər işlənib hazırlanmışdır:

• “ARDNŞ-də korrupsiya fəaliyyətinə müqavimət sisteminin təşkilati-hüquqi strukturu” standartı,

• “Qarşı-tərəflərin yoxlanılması proseduru” standartı,

• “Namizədlərin rəhbər vəzifələrə yoxlaması proseduru” standartı,

• “Xeyriyyə, sosial və sponsor yardımı haqqında” standart,

• “İşgüzar hədiyyələr haqqında” standart,

• “Nümayəndəlik və ezamiyyət xərcləri, eləcə də korporativ kartların istifadə edilməsi qaydası haqqında” standart,

• “ARDNŞ-nin pozuntular haqqında məlumatlandırma, eləcə də etik normalar və korrupsiyaya qarşı tələblər sistemi” standartı.

Bundan əlavə, ARDNŞ-nin Korrupsiyaya qarşı siyasəti və Biznes etikası məcəlləsi də işlənib hazırlanmışdır.

Hazırda çatışmazlıqlar aşkar edildikdə və ya qanunvericilikdə dəyişikliklər baş verdikdə təkmilləşdirilmə aparmaq məqsədilə tətbiq edilmiş korrupsiyaya qarşı prosedurların effektivliyinin monitorinqi üzrə tədbirlər proqramı işlənib hazırlanır.

İşlənib hazırlanmış sənədlərin və prosedurların tətbiqi 2013-cü ildə planlaşdırılır. Bundan əlavə, Şirkətin Şura üzvləri və departament rəhbərləri üçün korporativ etikanın ümumi prinsipləri və işlənib hazırlanmış sənədlər üzrə təlim keçiriləcəkdir. Gələcəkdə Şirkət bütün əsas işçilər üçün korrupsiyaya qarşı təcrübələr üzrə təlimlər keçirməyi planlaşdırır.

İri işəgötürən olaraq və iqtisadiyyata, cəmiyyətə və fəaliyyət göstərdiyi regionlarda ətraf mühitin vəziyyətinə mühüm təsir göstərərək Şirkət maraqlı tərəflərin geniş dairəsi ilə qarşılıqlı əlaqələr yaradır. Əsas maraqlı tərəflərə işçi heyəti, həmkarlar ittifaqı, ictimai təşkilatlar, dövlət hakimiyyəti orqanları və s. aiddir. Onlar ARDNŞ-nin fəaliyyəti üçün vacibliyinə və qarşılıqlı əlaqələrin tezliyinə əsasən müəyyən olunmuşdur.



# ARDNŞ-nin əsas maraqlı tərəfləri

Əsas maraqlı tərəflərlə uzunmüddətli partnyor münasibətlərini qurmaq və maraqların balansını qoruyub saxlamaq üçün Şirkət açıq dialoq siyasətini həyata keçirir. ARDNŞ maraqlı tərəflərə vaxtlı-vaxtında lazımi məlumatı təqdim etməyə və onları əks-əlaqə imkanı ilə təmin etməyə çalışır.

Şirkətin korporativ əlaqələr vasitələri sisteminə qəzetlər, jurnallar, bukletlər və internet portalları daxildir. Bunlardan əlavə, ARDNŞ-nin KİV-i Şirkətin davamlı inkişaf sahəsində fəaliyyətinin aspektlərini işıqlandırır. ARDNŞ-nin korporativ saytında Şirkətin sosial layihələrinə, ətraf mühitin qorunmasına, əməyin mühafizəsinə və sənaye təhlükəsizliyinə həsr olunmuş və Şirkətin davamlı inkişaf istiqamətləri üzrə fəaliyyəti haqqında məlumatlandırmanın artırılmasına xidmət edən bölmələr təqdim olunmuşdur. 2011-ci ildə Şirkət öz nailiyyətləri, neftçilərin həyatı və ölkənin neft sənayesinin tarixi haqqında məlumat verən "SOCAR plus" elektron jurnalını buraxmışdır. Jurnal aşağıdakı internet səhifədə geniş auditoriya üçün mövcuddur: http://www.socarplus.az.

**Şirkət insan kapitalını özünün qiymətli aktivi, işçilərə investisiyaları isə öz gələcəyinə, effektivliyinə və sabitliyinə investisiya hesab edir**. ARDNŞ təhlükəsiz iş şəraiti, layiqli əmək haqqı və sosial dəstək səviyyəsi, eləcə də peşəkar inkişaf mümkün olan iş yerlərini yaratmağa çalışır. İşçilərlə səmərəli dialoq aləti kollektiv müqavilədsidir. Hazırda bu müqavilə 100% işçiləri əhatə edir. ARDNŞ-nin müəssisələrində sosial paket, təhlükəsizlik və əməyin mühafizəsi ilə bağlı məsələlər üzrə Şirkətin qarşılıqlı əlaqəsi olan həmkarlar ittifaqı yaradılmışdır.

Dövlət şirkəti olan ARDNŞ-nin dövlət orqanları ilə sıx qarşılıqlı əlaqəsi vardır. Bir çox məsələlər üzrə peşəkar səriştəyə sahib olaraq Şirkət qanunvericilik fəaliyyətinə öz töhfəsini verir. Lazım gəldikdə Şirkət ölkənin qanunverici aktlarına dəyişikliklərin edilməsi üzrə öz təkliflərini dövlət idarəetmə orqanlarına göndərir. Belə ki, 2011-ci ildə ARDNŞ-nin təşəbbüsü ilə Azərbaycan Respublikasının vergi qanunvericiliyində dəyişikliklər aparılmışdır.

Şirkətin yerli icmalar qarşısında böyük məsuliyyəti vardır. O, iri vergiödəyicisidir və öz müəssisələrinin inkişafına sərmayələr qoyaraq, iqtisadiyyatının diversifikasiyası və əmək, xidmətlər bazarının inkişafı, yaşayış məntəqələrinin infrastrukturunun keyfiyyətinin təkmiləşdirilməsi vasitəsilə regionların sosial-iqtisadi inkişafı proqramlarında iştirak edir. Şirkətin sosial və xeyriyyə proqramlarının prioritetlərinə infrastrukturun inkişafına dəstək, sağlamlığa qayğı, təhsil, mədəniyyət və idmana dəstək daxildir. ARDNŞ müxtəlif elmi sərgilərdə və konfranslarda iştirak edir, eləcə də özü bu cür tədbirlərin təşkilatçısı qismində çıxış edir.

Təbiətdən istifadə və ətraf mühitin müdafiəsi məsələləri

də Şirkətin maraqlı tərəflərlə qarşılıqlı əlaqələrinin vacib istiqamətidir. ARDNŞ ətraf mühitin mühafizəsi sahəsində bir sıra yerli hökumət və qeyri-hökumət təşkilatları, eləcə də dövlət orqanları ilə müvəffəqiyyətlə əməkdaşlıq edir, onlarla birgə layihələr həyata keçirir və əhali arasında ekologiya sahəsində maarifləndirmə işini aparır.

Eyni zamanda, ARDNŞ-nin mütəxəssisləri əməyin mühafizəsi və sənaye təhlükəsizliyi məsələlərinə görə məsuliyyət daşıyan dövlət orqanları ilə daim əlaqədədir. 2011-ci ildə Şirkət tərəfindən bu sahədə 10-dan çox görüş və dəyirmi masa həyata keçirilmişdir.

İşçi heyəti, həmkarlar ittifaqı, tədris müəssisələri və yerli icmalarla qarşılıqlı əlaqələrlə bağlı məsələlərə Hesabatın müvafiq hissələrində daha ətraflı baxılır.





# İnnovasiya fəaliyyəti



İnnovasiya texnologiyalarının inkişafı nəinki Şirkətin, hətta Azərbaycan Respublikasının bütün iqtisadiyyatının prioritet məsələlərindən biridir. Bu sahəyə bütün səviyyələrdə böyük diqqət ayrılır və ARDNŞ dövlət siyasətinin birbaşa bələdçisi kimi bu prosesin önündədir.

ARDNŞ-nin strukturuna Neft və qaz elmi-tədqiqat layihə institutu, Geologiya və geofizika elmi institutu, Elmi fond və “Nanotexnologiyalar” Elmi-İstehsalat Mərkəzi daxildir. Şirkətdə Şirkətin Birinci vitse-prezidenti Xoşbəxt Yusifzadənin rəhbərliyi altında Elmi-Tədqiqat Şurası fəaliyyət göstərir. ARDNŞ-nin elmi institutlarının mütəxəssisləri Şirkətin elmi-tədqiqat və sınaq işlərinin 90%-ni həyata keçirirlər. Hər il ARDNŞ-nin rəhbərliyi birinci vitse-prezidentin və digər maraqlı bölmələrin vitse-prezidentləri tərəfindən təsdiq olunan elmi-tədqiqat tədbirlərinin tematik planını tərtib edir. ARDNŞ-nin elmi institutlarının elmi-tədqiqat fəaliyyətinin nəticələri Şirkətin bölmələrində praktik istifadəyə və tətbiqə yönəlir.

ARDNŞ-nin elmi fondu Azərbaycanın gənc alimlərinin neft və qaz sənayesi sahələrində ən yaxşı elmi-tədqiqat işlərini dəstəkləyir. ARDNŞ fondunun yaradılmasının təşəbbüskarları Şirkətin prezidenti Rövnəq Abdullayev və Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov olmuşdur. Elmi fond 2011-ci ildə işə başlamışdır, 2012-ci ildə onun maliyyələşdirmə fondunun həcmi isə təqribən 3 milyon manat təşkil edəcəkdir.

**ARDNŞ-nin “Nanotexnologiyalar” Elmi-İstehsalat Mərkəzi 2011-ci ildə Şirkətin istehsalat fəaliyyətinə nanosistemlərin və texnologiyaların tətbiqi üzrə tədqiqatları aparmaq üçün ARDNŞ-nin 2010-2015 illər üzrə “Nanoneft” proqramı çərçivəsində yaradılmışdır.** Elmi-istehsalat mərkəzinin açılması Azərbaycan alimlərinin və ARDNŞ mütəxəssislərinin neft və qaz hasilatında nanotexnologiyaların yaradılması və tətbiqi üzrə çoxillik işinin nəticəsi olmuşdur.

Nanotexnologiyaların neft sənayesində tətbiqinin yüksək səmərəsi ARDNŞ-nin rəhbərliyi tərəfindən 2010-

**ARDNŞ-da nanotexnologiyalar**

ARDNŞ-də nanotexnologiyaların istifadəsi akademik Azad Mirzəcanzadənin yenilikçi işlərinə və ARDNŞ-nin və Bakı Dövlət Universitetinin rəhbərliyinin birgə istehsalat layihələrinə görə mümkün olmuşdur.

ARDNŞ-nin layihələrinin gedişi zamanı əldə olunmuş innovasiya nanotexnologiyaları neftin çətin hasil olunan qalıq ehtiyatlarını mövcud olduğu layların neft məhsuldarlığının artırılması üçün istifadə olunur. Belə laylarda nanozərrəciklərin tətbiq edilməsi mayeyə atom-molekul səviyyəsində təsirin göstərilməsinə, mühitdə təzyiqin və suyun turşuluğunun artmasına gətirib çıxarır.



2015-ci illər üzrə “Nanoneft” (NanoOil) proqramının qəbul edilməsində öz əksini tapmışdır. **Proqram dörd hissədən ibarətdir: “Nanohasilat”, “Nanoqazma”, “Nanokimya” və “Ekonanoneft”.** Bu proqramda Şirkətin istehsalat və elmi fəaliyyətində mövcud nanosistemlərin istifadəsi və yeni nanoməhsulların yaradılması üzrə perspektiv iş növləri açıqlanır.

Mövcud nanosistemlər “Nanoneft”, “Nanobitum”, “Nanohidron” və “Nanomay” ARDNŞ tərəfindən Şirkətin anomal lay təzyiqi olan Qum adası, Bibiheybət, Balaxanı, Günəşli və s. yataqlarında neftin hasilatı və quyuların qazılması zamanı müvəffəqiyyətlə tətbiq olunur. Nanosistemlər quyuların divarlarının sabitliyini təmin edir, hasil olunan neftin qum və sudan ayrılması dərəcəsini artırır, layların və torpaqların çirklənməsinin qarşısını alır. Nanosistemlərin tətbiqi 20-dən çox yeni quyunun qazılmasına çəkilən istehsalat xərclərinin azalmasına və köhnə mədənlərdə məhsuldarlığın artmasına gətirib çıxarmışdır. Yaxın gələcəkdə ARDNŞ-nin rəhbərliyi mövcud nanosistemləri neft-kimya və sənaye ekologiyasında tətbiq etməyi, eləcə də Azərbaycan və xarici istehsalat birlikləri ilə əməkdaşlıq edərək nanosistemlər əsasında məhsulların buraxılmasının planlaşdırır.

Bununla yanaşı, ARDNŞ yeni və effektiv istehsalatların tikintisi ilə də məşğul olur. Xüsusilə də, Şirkət tikintisinin 2020-ci ildə başa çatacağı ehtimal olunan iri innovasiya layihəsi olan neftin, qazın emalı və neft-kimya məhsullarının istehsalı üzrə kompleksin tikintisinə başlamışdır. “Azərkimya” İB-nin ərazisində ARDNŞ dünya standartlarına cavab verən məhsulların buraxılmasına yönəlmiş kimya sənaye parkını yaratmağı planlaşdırır. Eyni zamanda, 2011-ci ildə Şirkət müasir gəmiqayırma zavodunun tikintisinə başlamışdır. Yeni zavodun texnoloji avadanlığı müxtəlif konfiqurasiyalı və müxtəlif tonnajlı gəmiləri istehsal etməyə, eləcə də gəmilərin lazımi təmirini və yenidən qurulmasını həyata keçirməyə imkan verəcək.

Şirkət Azərbaycan Respublikasında 2011-ci ildə keçirilmiş bir sıra elmi-tədqiqat forum və konfransların təşkilatçısı və iştirakçısı olmuşdur. Bunların arasında Şirkət tərəfindən təşkil edilmiş "Neft və qaz istehsalında yeni texnologiyalar” adlı II Beynəlxalq elmi-praktik konfrans və Şirkətin sponsorluğu ilə keçirilmiş “Xəzər nefti və qazı” adlı on yeddinci Beynəlxalq konfrans xüsusi yer tutur.

Nanontexnologiyalar sahəsində layihələr, proqramlar və tədqiqatlar, innovasiya obyektlərinin tikintisi və elmi-tədqiqat forumlarda iştirak ARDNŞ üçün innovasiya fəaliyyətinin prioritetliyini təsdiq edir. 2011-ci ildə Şirkətin innovasiya layihələrinin həyata keçirilməsinə xərcləri təqribən 10 milyon manat təşkil etmişdir ki, bu da Azərbaycan Respublikasının 2011-ci ildə təhsil sahəsində tətbiqi tədqiqatlara planlaşdırılmış xərclərdən iki dəfə artıqdır. ARDNŞ Azərbaycan Respublikasının vətəndaşlarının və hökumətinin maraqları üçün öz innovasiya texnologiyalarını fəal surətdə inkişaf etdirməyə və onlara dəstək verməyə çalışır.





# Ekoloji fəaliyyət



**Artıq 150 ildən çoxdur ki, ölkədə aparılan neftin və qazın sənaye hasilatı ölkədə yaranmış ekoloji vəziyyətin səbəblərindən biridir.** Hal-hazırda Azərbaycanın neft və qaz sahəsinin ətraf mühitə mənfi təsirin minimuma endirilməsi məsələləri yeni inkişaf mərhələsinə keçmiş və 1-ci dərəcəli əhəmiyyət əldə etmişdir. Bundan əlavə, ətraf mühitin mühafizəsi məsələlərinə dövlət səviyyəsində də xüsusi diqqət yetirilir. Ölkə hökuməti "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nı təsdiq etmiş və torpaq, su hövzələrinin çirklənməsi, biomüxtəlifliyin bərpa edilməsi və s. ilə bağlı kəskin problemlərin həlli məqsədi ilə milli ekoloji proqramlarını həyata keçirir.

ARDNŞ dövlət ekoloji siyasətinin həyata keçirilməsində fəal iştirak edir və həyata keçirilməsi zamanı ekologiya sahəsində aparıcı beynəlxalq təcrübələri tətbiq edərək təbiətin qorunması ilə bağlı bir çox layihələri həyata keçirir.

Son zamanlarda Şirkət ətraf mühitin mühafizəsi sahəsində əhəmiyyətli müsbət nəticələr əldə etmişdir. Belə ki, 2011-ci ildə ARDNŞ neftlə çirklənmiş torpaqların bərpa edilməsi templərinin əhəmiyyətli artmasına nail olmuş, Şirkətin müəssisələrində tullantıların idarə edilməsi prosesi qaydaya salınmış, aşağı təzyiqli səmt neft qazının utilizasiyası üzrə layihələr həyata keçirilmişdir. Bu iş 2012-ci ildə də davam etdiriləcəkdir.

**Şirkətin ətraf mühitin qorunması sahəsində əsas sənədi Ekoloji Siyasətdir. Ekoloji Siyasətdə qoyulmuş məsələlərin həll olunması üçün Şirkətdə ARDNŞ-nin yaxın 5-10 il ərzində ətraf mühitin mühafizəsi fəaliyyətinin əsas istiqamətləri müəyyən olunmuş köməkçi sənədlər işlənib hazırlanmışdır.** Bu sənədlərə: 2020-ci ilə qədər iqlimin dəyişməsinin yumşaldılması strategiyası, Tullantıların idarə olunması planı, Səmt neft qazı tullantılarının azaldılması planı, Qəza hallarının qarşısının alınması planı və s. aiddir. Hazırda neft dağılmasının xəbərdarlığı və ləğvi üzrə birləşdirilmiş sənəd hazırlanır. Bu sənəd ARDNŞ-nin bütün struktur bölmələri üçün vahid olacaqdır.

Şirkətdə ətraf mühitin mühafizəsi məsələlərinin idarə edilməsi üçün Ekologiya İdarəsi və Ekoloji layihələrin idarəedilməsi şöbəsi yaradılmışdır. Şirkətin bütün struktur bölmələrində ətraf mühitin mühafizəsi, əməyin mühafizəsi və sənaye təhlükəsizliyinə görə məsuliyyətli olan şöbələr mövcuddur. Hər il Şirkətin hər bir müəssisəsi ətraf mühitin mühafizəsi üzrə planlaşdırılmış tədbirləri və müvafiq xərcləri qeyd etməklə xüsusi blank doldurur. Ekoloji layihələrin idarəedilməsi şöbəsi əldə edilmiş məlumatları birləşdirir və bütün Şirkət üzrə birillik tədbirlər planını tərtib edir.

2011-ci ildə 164-dən çox təbiətin qorunması tədbirləri həyata keçirilmiş, 2012-ci ildə təbiətin qorunması tədbirlərinə 50,754 milyon manat məbləğində xərclər planlaşdırılmışdır. Bunlara 25,199 milyon manat məbləğində vəsait xərclənmişdir.

Özünün təbiətin qorunması proqramlarından əlavə Şirkət ekoloji məsələləri də daxil edən dövlət sosial-iqtisadi inkişaf proqramlarına uyğun olaraq ekoloji tədbirləri də həyata keçirir. Müəyyən edilmiş qaydada (adətən hər ay və hər rüb)

**ARDNŞ-nin ekoloji siyasəti**

Ekoloji siyasət 2008-ci ildə ARDNŞ Prezidentinin Sərəncamı ilə təsdiq edilmişdir. Sənəd Şirkətin fəaliyyətin ekoloji təhlükəsizliyini təmin etmək və ehtiyatları səmərəli istifadə etmək niyyətini əks etdirir. İnvestisiya və idarəetmə ilə bağlı qərarların qəbul edilməsi zamanı Ekoloji siyasətə uyğun olaraq müsbət sosial və iqtisadi nəticələrə gətirib çıxaracaq layihələrin həyata keçirilməsinə daha çox üstünlük verilir. Şirkət “sıfır təsir” konsepsiyasına riayət etməyi öhdəsinə götürür. Bu konsepsiya Şirkətin bütün fəaliyyət istiqamətlərində çirkləndirici maddələrin tullantısı və atılması həcmlərinin, eləcə də tullantıların yaranmasının minimuma endirilməsindən ibarətdir. Ekoloji siyasətdə aşağıdakı məsələlər öz əksini tapır:

• neft-çıxarma və emal sənayesinin fəaliyyətinin ekoloji nəticələrinin ləğv edilməsi və istehsalat fəaliyyətində ekoloji təhlükəsizliyin təmin edilməsi üzrə tədbirlərin keçirilməsi,

• ətraf mühitin qorunmasının idarə olunması sisteminin təkmilləşdirilməsi, onun mərhələlərlə beynəlxalq standartlara uyğunlaşdırılması,

• çirklənmənin qarşısının alınması və mövcud çirklənmələrin ətraf mühitə təsirinin azaldılması üzrə tədbirlər planlarının hazırlanması və həyata keçirilməsi,

• ətraf mühitə və insan sağlamlığına mənfi təsirlə bağlı ekoloji monitorinq və risklərin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi,

• ekoloji monitorinq, ətraf mühitə və insanların sağlamlığına təsir edəcək ekoloji risklərin qiymәltəndirilməsi sisteminin təkmilləşdririlməsi,

• ətraf mühitin qorunması, əhalinin sağlamlığı, təbii ehtiyatlardan səmərəli istifadə sahəsində dövlət, hökumət orqanları və ictimai təşkilatlarla əməkdaşlığın genişləndirilməsi,

• ekologiya və təbii sərvətlərdən səmərəli istifadə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi,

• istehsalat müəssisələrində kadrların hazırlanması, təlimləndirmə sisteminin inkişaf edtirilməsi, personalın ümumi ekoloji mədəniyyət səviyyəsinin yüksəldilməsi,

• təbliğatın aparılması, ekoloji təfəkkürün formalaşdırılması, ekoloji problemlərin həlli işinin aparılmasına ictimaiyyətin cəlb edilməsi.

Ekoloji siyasət Şirkətin saytında aşağıdakı ünvanda dərc edilmişdir: http://new.socar.az/socar/assets/documents/az/environmental_policy/ekolojisiyaset.pdf.

Şirkət Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi və digər direktiv orqanlar üçün bu proqramların həyata keçirilməsi haqqında hesabat tərtib edir. Eyni zamanda Şirkət ARDNŞ-nin yataqlarının işlənməsi ilə məşğul olan əməliyyat şirkətləri tərəfindən ətraf mühitin mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsinə nəzarət edir.




Ətraf mühitin vəziyyətinə, eləcə də ARDNŞ-nin bütün obyektlərində təbiətin qorunması tədbirlərinin həyata keçirilməsinə nəzarət etmək üçün Ekologiya idarəsinin və Ekoloji layihələrin idarəedilməsi şöbəsinin mütəxəssisləri tərəfindən mütəmadi olaraq quruda və dənizdə ekoloji monitorinq aparılır. Mütəxəssislər ərazilərə gedərək tullantıların və atılmaların həcmini və kimyəvi tərkibini, torpaqların tərkibini, radiasiyanın səviyyəsini və s. ölçürlər. Əldə olunmuş məlumat əsasında Şirkətin fəaliyyətinin ətraf mühitə təsir dərəcəsi qiymətləndirilir və bu təsirin minimuma endirilməsi və ya ləğv edilməsi yolları işlənib

hazırlanır. Bundan əlavə, monitorinqin nəticələri əsasında Şirkətin prezidentinə təqdim olunan rüblük hesabat hazırlanır.

**Şirkət tərəfindən həyata keçirilən bütün layihələr ətraf mühitə təsirin qiymətləndirilməsindən (ƏMTQ) keçir.** Bu qiymətləndirmə çərçivəsində ictimai dinləmələr həyata keçirilir. ƏMTQ üzrə sənədlər mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq tərtib olunur, bundan sonra ictimai dinləmələr üçün təqdim olunur, sonra isə müvafiq dövlət strukturları ilə razılaşdırılır. Məsələn, Şirkət tərəfindən neftin, qazın emalı və neft-kimya məhsullarının istehsalı üzrə yeni kompleksin tikintisi layihəsinin ilkin ƏMTQ-sı keçirilmişdir. ƏMTQ-nin gedişində Bakı şəhərinin ərazisində yerləşən mövcud neft-kimya istehsalatlarının sökülməsi ilə bağlı bu layihənin həyata keçirilməsi zamanı ətraf mühitə müsbət təsirin olduğu aşkar edilmişdir. Bundan əlavə, Xəzərdə yeni gəmiqayırma zavodunun tikintisi üçün ARDNŞ-nin struktur bölməsi olan Xəzər Dəniz Neft Donanmasının Baku Shipyard LLC şirkəti ilə birgə hazırladığı ƏMTQ layihəsi üzrə 2011-ci ildə ictimai dinləmələr keçirilmişdir. Dinləmələrdə iştirak üçün ictimai təşkilatlar, yerli sakinlər, elm sahəsinin nümayəndələri və digər maraqlı tərəflər dəvət olunmuşdurlar.

**Təbiətin qorunması ilə bağlı fəaliyyətin səmərəli idarə edilməsi və ekoloji təhlükəsizliyin təmin edilməsi məqsədilə Şirkətdə ekoloji menecment sistemi tətbiq olunmuş və Ətraf mühitin mühafizəsinin idarə edilməsi sistemi üzrə ISO14001 və Keyfiyyətin idarə edilməsi sistemi üzrə ISO9001 sertifikatları alınmışdır.** Hal-



hazırda Şirkətin Ekologiya idarəsinin balansında fəaliyyət göstərən Kompleks tədqiqatlar üzrə laboratoriya üçün analitik laboratoriyalara tətbiq olunan ISO17025 tələblərinə uyğunluq sertifikatının alınması proseduru yekun mərhələsindədir.

Şirkət ətraf mühitin mühafizəsi məsələləri üzrə işçi heyətinin təlimləndirilməsinə və əhalinin ekologiya sahəsində maarifləndirilməsi işinin aparılmasına böyük diqqət yetirir. Ətraf mühitin mühafizəsinə görə məsuliyyət daşıyan işçilər müntəzəm qaydada ixtisasın artırılması kursları və ixtisaslaşdırılmış təlimlər, o cümlədən xaricdə keçirilən kurs və təlimlər



keçirlər. Təhsil prosesi çərçivəsində, eləcə də ekologiya və təbiətin qorunması sahəsində son yeniliklər barəsində maarifləndirilmək və təcrübə ilə mübadilə etmək məqsədilə işçilər müxtəlif ekologiya üzrə konfrans və seminarlarına göndərilir. Maarifləndirmə həmçinin Şirkətin işçiləri üçün praktik dərslərin keçirilməsi nəzərdə tutulan Ekoloji parkda da keçirilir.

**2011-ci ildə ARDNŞ-nin işçiləri arasında "yaşıl" şüur üzrə kitabça yayılmışdır. Bu kitabçada münasib ətraf mühitin qorunub saxlanması üçün hər bir kəsin nə edə biləcəyi haqqında danışılır: velosipedin xeyrinə avtomobil nəqliyyatından imtina etmək, daha az enerji istifadə edən əməliyyatlardan istifadə etməklə məişətdə elektrik enerjisinə qənaət etmək və s.**

Əhalinin ekologiya sahəsində maarifləndirilməsi üzrə Şirkətin fəaliyyəti ARDNŞ-nin rəsmi saytında daha ətraflı şəkildə təqdim olunur .

## Atmosferə təsir

Şirkətin ətraf mühitin mühafizəsi sahəsində məqsədlərindən biri çirkləndirici maddələrin atmosferə atılmasının azaldılmasıdır. Bunun üçün

müəssisələrdə müvafiq tədbirlər kompleksi işlənib hazırlanır və həyata keçirilir.

Müəssisələrin ətraf mühitə təsirinin qiymətləndirilməsi üçün atmosferə atılan tullantıların sistematik monitorinqi həyata keçirilir və onların dinamikası öyrənilir.

Atmosfer havasını çirkləndirən maddələrin inventarlaşdırılması ARDNŞ-də 2010-cu ildən həyata keçirilməyə başlanıb.

Bununla yanaşı, Şirkət ona məxsus olan nəqliyyat vasitələrindən havaya atılan çirkləndirici tullantılara da nəzarət edir. Bu məqsədlə yaradılmış üç ekoloji ölçmə məntəqəsində quraşdırılmış müasir avadanlıqlar vasitəsilə islanmış qazın tərkibi müəyyən olunur, maşın tələblərə uyğun olmadıqda reysdən çıxarılır və təkrar texniki baxışa və ya təmirə göndərilir. Bundan sonra, avtomobil təkrar test keçir və müsbət nəticə olduqda ona "yaşıl nişan" vurulur. 2011-ci ildə təxminən 4000 avtomobil ekoloji yoxlamadan keçmişdir ki, bu da Şirkətin bütün avtomobil parkının 70%-nı təşkil edir.

## Səmt neft qazının tullantılarının azaldılması.

Şirkətin tullantılarının əsas hissəsini səmt neft qazının (SNQ) tullantıları və aşağı təzyiqli SNQ təşkil edir. Tullantıların böyük hissəsi Günəşli, Neft Daşları və Palçıq Pilpiləsi yataqlarına düşür.

**Şirkət Dünya bankının rəhbərliyi altında Qazın Yandırılmasının Azaldılması üzrə Qlobal Tərəfdaşlıq təşəbbüsündə (GGFR) iştirak edir.** Bu platformada iştirakı sayəsində Şirkət bu sahədə aparıcı dünya təcrübəsi ilə tanış olmuş və onu müvəffəqiyyətlə tətbiq edir. GGFR ilə birlikdə Şirkətdə SNQ tullantılarının azaldılması planı işlənib hazırlanmışdır ki, həmin plan çərçivəsində aşağıdakı işlər yerinə yetirilmişdir:

• Günəşli yatağında 1.5 atmosfer təzyiqinə qədər SNQ toplayan məhsuldarlığı sutkada 4 milyon kub metr olan kompressor stansiyası istismara verilmişdir. SNQ 15 atmosfer təzyiqinə qədər sıxılır və sonra qaznəqletmə sisteminə vurularaq istifadəyə verilir. Nəticədə hər il SNQ-nın təqribən 590 milyon kub metri QEZ-ə göndərilir, bu da 8 milyon ton CO2 ekvivalenti həcmində metanın atılmasının qarşısını alır .

• Neft Daşları və Palçıq Pilpiləsi yataqlarında 66 kiçik qabaritli vakuum kompressoru quraşdırılmışdır. Bu kompressor modellərinin tətbiqi əlavə meydançalar tikmədən mövcud meydançalardan istifadə etmək imkanını yaratdı. Kompressorlar sutkada 900 min kub metrə qədər aşağı təzyiqli SNQ yığmağa imkan verir. Hazırda bu yataqlarda bütün SNQ-nın gələcəkdə utilizasiyasına imkan verəcək əlavə kompressorların quraşdırılması işləri həyata keçirilir.

• Abşeron neft yatağında SNQ-nın tutulması üzrə layihə

**Atmosferə çirkləndirici maddələrin ümumi tullantısı[9], ildə min ton**

| | 2010 | 2011 |
|---|---|---|
| **Atmosferə zərərli maddələrin ümumi tullantısı, o cümlədən:** | 157.89 | 161.45 |
| **Bərk maddələr** | 0.14 | 2.27 |
| **Qaz və maye halında olan cisimlər, o cümlədən:** | 157.75 | 159.18 |
| **Kükürd dioksidi** | 1.11 | 0.75 |
| **Azot oksidi** | 6.06 | 6.87 |
| **Karbon oksidi** | 14.51 | 14.24 |
| **Karbohidrogenlər (uçucu orqanik birləşmələr olmadan)** | 127.55 | 127.34 |
| **Uçucu orqanik birləşmələr** | 7.86 | 9.33 |
| **Digər qaz halında olan maddələr** | 0.66 | 0.65 |

**2009-2011-ci illərdə Şirkətin müəssisələrində SNQ-nın idarə edilməsi**

| | 2009 | 2010 | 2011 |
|---|---|---|---|
| **SNQ-nın əmələ gəlməsi ,min $m^3$** | 5 279 258 | 5 619 330 | 5 776 746 |
| **Utilizasiya, %** | 92.3 | 95.0 | 97.9 |
| **Havalandırma, %** | 7.7 | 5.0 | 2.1 |
| **Məşəllərdə yandırma, %** | 0 | 0 | 0 |



işlənib hazırlanmışdır.

**İqlimin dəyişməsinə müqavimət və enerji effektivliyi.**

2010-cu ildə Şirkətdə 2020-ci ilə qədər iqlim dəyişməsinin yumşaldılması üzrə Strategiya təsdiq edilmişdir. Strategiyanın istiqamətlərindən biri istixana effekti yaradan qazların tullantıları üzrə monitorinqin aparılması və bu monitorinqin nəticələri üzrə illik hesabatların tərtib edilməsidir. 2007-ci ildən başlayaraq Şirkətdə istixana effekti yaradan qazların birbaşa və dolayı tullantılarının inventarlaşdırılması həyata keçirilir.

Strategiyanın digər istiqaməti toplanmış məlumatların təhlili və ən karbontutumlu istehsalat proseslərinin üzə çıxarılmasıdır. Bu proseslərin təhlilinin nəticələri üzrə istixana effekti yaradan qazların tullantılarının azaldılması üzrə tədbirlər işlənib hazırlanır.

SNQ-nın istifadəsinin artması Şirkətin müəssisələri tərəfindən istixana effekti yaradan qazların xüsusi tullantılarının azaldılmasını təmin edir. Kioto protokolunun mexanizmləri çərçivəsində layihələrin həyata keçirilməsi hesabına ARDNŞ bu fəaliyyət üçün əlavə maliyyələşdirmənin əldə edilməsini planlaşdırır. Xüsusilə də, “Neft Daşları” NQÇİ-də Təmiz İnkişaf Mexanizmi çərçivəsində yataqda kiçik təzyiqli SNQ-nın utilizasiyası layihəsi həyata keçirilir. Hal-hazırda ARDNŞ həmçinin Birgə həyata keçirmə mexanizminin tətbiq edilməsi imkanını nəzərdən keçirir, çünki Şirkətdə SNQ-nın azaldılması üzrə bir layihəyə birləşdirilə bilən bir çox kiçik layihələr həyata keçirilir.

Ekoloji siyasətə əsasən ARDNŞ-də nəinki enerji ehtiyatlarının istifadəsini, hətta istixana effekti yaradan qazların tullantılarını azaltmağa imkan yaradan enerji baxımından effektiv texnologiyaların tətbiqi üzrə işlər aparılır. Şirkətin müəssisələrində daha az enerji sərf edən avadanlıq quraşdırılır və texnoloji proseslərin korreksiyası həyata keçirilir. Enerjiyə qənaətin əsas məqamı enerji istifadəsinin uçotu və nəzarətidir. Şirkətdə enerji ehtiyatlarının uçotu sistemi fəaliyyət göstərir, bütün bölmələrdən enerji istifadəsinin həcmi haqqında məlumat toplanılır, Şirkətin obyektlərində enerji istifadəsinin optimal rejim sxemləri işlənib hazırlanır. 2011-ci ildə yerləşdirilməsi Neft Daşları yatağında planlaşdırılan QTES-48 istilik elektrik stansiyası üçün meydançanın tikintisi başlamışdır. Günəşli yatağında elektrik avadanlığı təkmilləşdirilmiş, eləcə də Nəriman Nərimanov adına NQÇİ-də 10 kilometrlik sualtı kabel tam əvəz edilmişdir. Bundan əlavə, 2011-ci ildə Şirkətdə közərmə lampaları enerji qənaətli lampalarla əvəz olunmuşdur, işıqlandırmanın idarə edilməsi üçün isə işığın avtomatik söndürülməsi mexanizmi quraşdırılmışdır ki, bu da elektrik enerjisinə mühüm dərəcədə qənaət etməyə imkan verir.

2011-ci ildə görülmüş işin nəticəsində Şirkətin müəssisələri 3352 min kVt elektrik enerjisini istifadə etmişlər ki, bu da 2010-cu ildə istifadə edilmiş elektrik enerjisinin səviyyəsindən 25% azdır. 2012-ci ildə enerjinin effektivliyinin artırılması üzrə ənənəvi tədbirlərdən əlavə ARDNŞ alternativ enerjinin istifadəsinin artırılmasına yönəlmiş layihələri həyata keçirməyi planlaşdırır.

Şirkət istehsalatı su ehtiyatlarına minimal təsir göstərməklə maksimal dərəcədə effektiv idarə etməyə çalışır. Bunun üçün ARDNŞ-nin müəssisələri su ehtiyatlarının rasional istifadəsi və onların çirklənmədən mühafizəsi üzrə tədbirlər kompleksini həyata keçirir.

Ekoloji siyasətə uyğun olaraq Xəzər dənizinin çirklənməsinin qarşısının alınması və təmizlənməsi Şirkətin ən prioritet vəzifələrindən biridir. Xəzər dənizində hasilat Şirkət tərəfindən artıq 60 ilə yaxındır ki, aparılır. Bununla əlaqədar dənizin qeyri-işlək hidrotexniki qurğulardan və digər tullantılardan təmizlənməsi ehtiyacı yaranmışdır. Bu tullantıların bir hissəsi artıq dənizdən

**ARDNŞ-nin Ekoloji parkı**

ARDNŞ-nin Ekoloji parkı 2011-ci ildə H. Z. Tağıyev adına NQÇİ-nin 93 min m² sahəsi olan rekultivasiya edilmiş ərazisində yaradılmışdır. Ekoloji park biomüxtəlifliyin qorunub saxlanılması və bərpa edilməsi, ekoloji maarifləndirmə, təlimləndirmə və təcrübənin mübadiləsi məqsədilə ekoloji təmiz və tullantısız texnologiyaların tətbiqi ilə yaradılmış unikal layihədir. Parkın enerji tələbatının təqribən 40%-i enerjinin bərpa edilən mənbələri hesabına təmin edilir: parkda hər birinin gücü 10 Kvt/saat olan 4 ədəd külək generatoru və ümumi layihə gücü 20 Kvt/saat təşkil edən günəş panelləri quraşdırılmışdır. Parkda hərəkət etmək üçün elektromobillərdən istifadə olunur. Bitkilərin suvarılması zamanı suya və elektrik enerjisinə qənaət etmək imkanını verən damcılı suvarma sistemi tətbiq olunur. Şirkət planlaşdırır ki, gələcəkdə Ekoloji parkın enerji ilə təchizatı tamamilə enerjinin alternativ və bərpa edilən mənbələri hesabına həyata keçiriləcəkdir.

Ekoloji parkda 5000 m² sahəsi tutan müasir şitillik kompleksi vardır. Bu kompleksdə rekultivasiya edilmiş torpaqlarda əmək üçün xüsusilə uyğunlaşdırılmış ağac və kollar yetişdirilir. Bundan əlavə, şitilliklərdə Abşeron yarımadasının nadir nəsli kəsilən bitkilərin növləri becərilir. Şitilliklərdə eldar şamı, ağ şam, həmişəyaşıl sərv, Şərq tuyası, Avropa zeytunu, Lənkəran akasiyası, eləcə də müxtəlif otaq və dekorativ bitkilər yetişdirilir. 2011-ci ildə parkda becərilmiş 80 min şitil Şirkətin müəssisələri tərəfindən təmizlənmiş ərazilərdə əkilmişdir. Parkın ərazisində Azərbaycanın Qırmızı kitabına daxil edilmiş nadir ağac və bitki növləri yetişdirilir. Nadir bitkilərin becərilməsindən əlavə parkda həm də istirahət üçün münbit şərait yaradılmışdır.

Ekoloji park Şirkət tərəfindən ilk öncə təbiətə qayğı ilə yanaşmanın hər bir insanın birbaşa öhdəliyinin olmasını göstərmək üçün yaradılmışdır. Parkın ərazisində həm Şirkətin işçiləri, həm də məktəblilər, tələbələr və əhali üçün ekskursiya, seminarlar və konfranslar keçirirlir. Xeyriyyə fəaliyyəti çərçivəsində ARDNŞ parkın ərazisini tez-tez müxtəlif rəsmi tədbirlərin keçirilməsi üçün dövlət və hökumət təşkilatlarının ixtiyarına verir və bununla da cəmiyyətdə “yaşıl”

çıxarılmış və utilizasiyaya verilmişdir. Eyni zamanda dənizdə suyun səthindən neft və məişət çirkləndirici maddələri yığan xüsusi texnika işləyir. Bundan əlavə, sahil xəttinin möhkəmləndirilməsi işləri aparılır. İldə iki dəfə ARDNŞ hasilat yerlərində kompleks dəniz tədqiqatları aparır. Bu tədqiqatlar zamanı yerli su florası və faunasının inkişafında tendensiyalar təhlil olunur və istehsalat fəaliyyətinin canlı orqanizmlərə təsirinin dərəcəsi qiymətləndirilir.

2011-ci ildə avadanlığın və yeni təmizləyici qurğuların alınması üzrə geniş miqyaslı işlər aparılmışdır. Xüsusilə də, 28 May yatağında yerləşən 2, 5 və 14 saylı dəniz platformalarında gücü 75 m³/gün olan “Topas” tipli bioloji təmizləyici qurğular quraşdırılmışdır. Bu istiqamətdə iş 2012-ci ildə də davam etdiriləcəkdir.

Şirkətin ətraf mühitə təsirinin azaldılması üzrə işinin daha bir vacib istiqaməti lay sularının utilizasiya edilməsidir. Bu məsələnin həlli asan deyil, çünki o neft hasilatının texnologiyasında dəyişikliklərin edilməsini tələb edir. Bir sıra yataqlarda lay sularının utilizasiyası üzrə xüsusi avadanlıq quraşdırılmışdır. 2011-ci ildə 28 May yatağında gücü 3250 m³/gün olan lay sularının tam təmizlənməsi və hazırlanması üzrə qurğu istismara verilmişdir. Eyni



layihənin “Neft Daşları” yatağında və Nəriman Nərimanov adına NQÇİ-də də həyata keçirilməsi üçün hazırlıq işləri aparılır. Bundan əlavə, 2011-ci ildə Şirkət “Bibiheybətneft” NQÇİ və Tağıyev adına NQÇİ-də, 3 və 4 saylı mədənlərdə lay sularının tam utilizasiyasına nail olmuşdur. Lay sularının utilizasiyası sistemlərinin tikintisi planına Əli Əmirov adına NQÇİ və Tağıyev adına NQÇİ-nin digər mədənləri üzrə layihələr daxil edilmişdir.

Hazırda həyata keçirilmiş tədbirlər nəticəsində Şirkətdə formalaşan lay suların 70%-ə yaxını utilizasiya olunur. Hər ay tətbiq edilmiş tədbirlərin səmərəsi qiymətləndirilir və lay sularının əmələ gəlməsi dinamikası öyrənilir.

## Tullantıların idarə edilməsi və torpaqların mühafizəsi

Tullantıların idarə edilməsi sisteminin inkişafı. Öz xüsusiyyətinə görə Şirkətin fəaliyyəti böyük miqdarda istehsalat tullantılarının əmələ gəlməsi ilə nəticələnir ki, həmin tullantıların əsas hissəsi qazma tullantıları və neft şlamlarından ibarətdir. ARDNŞ tullantılarla rəftar prosesinin sistemləşdirilməsi və onların mərkəzləşdirilmiş qaydada toplanması və utilizasiyasının təşkili üzrə ciddi işlər görmüşdür.

Belə ki, Şirkətin bu sahədə strategiyasını müəyyən edən Tullantıların idarə olunması planı işlənib hazırlanmışdır. İlk növbədə Şirkət tullantıların əmələ gəlməsinin azaldılmasına və onların təkrar xammal kimi maksimal istifadəsinə çalışır. Qalan tullantıların poliqonda basdırılması bütün tələblərə riayət etməklə həyata keçirilir.

Tullantıların hərəkətinə nəzarət etmək üçün 2010-cu ildə tullantıların pasportlaşdırılması həyata keçirilmişdir. Şirkətin bütün müəssisələrində məlumatların toplanması üzrə xüsusi formalar qüvvəyə minmişdir. Bu formalar hər ay doldurulur və Ekologiya İdarəsinə göndərilir. Şirkət həmçinin tullantıların idarə edilməsinin monitorinqini həyata keçirir. Monitorinqin nəticələri ümumiləşdirilir və təhlil olunur.

Tullantıların böyük hissəsi ARDNŞ-nin Tullantı Mərkəzi tərəfindən qəbul edilir. Halhazırda Mərkəzin yenidən qurulması və onun funksiyalarının genişləndirilməsi üzrə işlər aparılır. ARDNŞ və ABŞ-ın Ticarət və İnkişaf Agentliyi arasında imzalanmış qrant müqaviləsi çərçivəsinə Mərkəzin aparıcı dünya standartlarına uyğun olaraq yenidən qurulması üzrə texniki-iqtisadi əsaslandırma hazırlanmışdır. Mərkəzdə tullantıların çeşidlərə ayrılması, onların təkrar istifadə üçün emalı və utilizasiyası üzrə kompleks tikiləcəkdir.

ARDNŞ-nin emal müəssisələri üçün istehsalat prosesi nəticəsində yaranan, eləcə də istehsalat fəaliyyətinin ötən illər ərzində aparılması zamanı yığılmış neft şlamlarının utilizasiyası böyük əhəmiyyət kəsb edir. 2011-ci ilin sonuna olan vəziyyətə görə Şirkətin müəssisələrində küllü miqdarda neft şlamları yığılmışıdır. Onların utilizasiyası məqsədilə 2011-ci ildə bir sıra tədbirlər həyata keçirilmişdir. Xüsusilə, Heydər Əliyev adına NEZ-də və “Azərneftyağ” NEZ-də Alfa Laval firmasının dekanterləri - məhsuldarlığı 30 m³/gün olan mobil modul qurğuları qurulmuşdur. Bundan əlavə, “Ekol Mühəndislik Xidmətləri” QSC tərəfindən neft şlamlarının zərərsizləşdirilməsi üzrə böyük sayda işlər görülmüşdür.

## Pozulmuş ekosistemlərin bərpası və biomüxtəlifliyin qorunub saxlanılması.

Şirkət üçün ən vacib ekoloji problem ölkədə keçmiş illərdə neft hasilatı zamanı yığılmış və Şirkətin balansına verilmiş, neftlə çirklənmiş torpaqlardır. Bu problemin əhəmiyyətini başa düşərək Şirkət bu torpaqların təmizlənməsi öhdəliyini öz üzərinə götürmüşdür.

ARDNŞ-nin rekultivasiya prosesinə yanaşması çoxmərhələlidir və aşağıdakı mərhələləri özündə cəmləyir:

- Çirklənmiş torpaqların inventarlaşdırılması;
- Çirklənmə sahəsinin və dərəcəsinin qiymətləndirilməsi;
- Təmizləmə metodlarının və texnologiyalarının seçilməsi;
- Çirklənmiş torpaqların təmizlənməsi planlarının işlənib hazırlanması və onların həyata keçirilməsi.

2011-ci ildə Şirkətdə GIS coğrafi informasiya sisteminin tətbiqinə başlanılmışdır. Bu sistem təmizlənmiş sahələr və çirklənmiş torpaqların yerləşməsi yerləri haqqında real vaxtda məlumatı toplamağa imkan verir. Sistem həmçinin torpaqları çirklənmə dərəcəsinə görə qruplaşdırmağa imkan verir və bu məlumatlar əsasında lokal təmizləmə layihələri hazırlanır. Torpaqların təmizlənməsi işində əsas məqsəd elə texnologiyaların seçilməsidir ki, onlar effektiv, Şirkətin obyektlərinin ərazisində tətbiq oluna bilən və öz növbələrində ətraf mühitə əlavə zərər verməyən olsun. Bunun üçün ARDNŞ rekulti-

**Bakıda SNQ-nın utilizasiyası mövzusunda təcrübənin mübadiləsi üzrə beynəlxalq konfransın keçirilməsi**

17 iyun 2011-ci il tarixində Bakıda ARDNŞ və GGFR tərəfindən təşkil olunmuş SNQ-nın utilizasiyası sahəsində təcrübənin mübadiləsi üzrə beynəlxalq konfrans işə başlamışdır. Konfrans ARDNŞ-nin ekologiya üzrə vitse-prezidenti xanım Rəfiqə Hüseynzadənin şəxsində Təşkilat komitəsinin sədrliyi altında keçirilirdi. Konfrans iştirakçılarına müraciətində Rövnəq Abdullayev qeyd etdi ki, son illərdə ekoloji problemlərin həlli Azərbaycan üçün prioritet məsələyə çevrilmişdir.

Konfransda Avropa və Mərkəzi Asiya ölkələrindən mütəxəssislər iştirak etmişdir. Konfransda həmçinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinin üzvləri, dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələri, o cümlədən BP, Statoil, ENI kimi şirkətlərin mütəxəssisləri iştirak etmişdir.

ARDNŞ 2008-ci ildən etibarən Dünya bankı ilə əməkdaşlıq edir və indiyə qədər SNQ tullantılarının azaldılması və iqlimin dəyişməsi ilə mübarizə üzrə bir sıra strateji cəhətdən vacib layihəni həyata keçirməyə nail olmuşdur.

Dünya bankının Azərbaycan üzrə meneceri Cozef Ouenin sözlərinə görə bu gün bütün ölkələr bərpa olunan və alternativ enerji mənbələri arasında balans tapmalıdır. Dünyada baş verən dəyişikliklərə dəstək olmaq üçün bütün ölkələrin hökumətləri bu məsələnin həllində fəal iştirak etməlidir.

vasiya üzrə beynəlxalq təcrübəni öyrənmişdir və hazırda müasir bioloji və texniki rekultivasiya və bioremediasiyanı müvəffəqiyyətlə tətbiq edir.

Hazırda Şirkətdə çirklənmiş torpaqların sahəsi 3783,5 ha təşkil edir ki, bunlardan 3012,7 ha neftlə, 725,8 ha lay suları ilə çirklənmiş torpaqlardır. Rekultivasiya işlərinin başladığı 2006-cı ildən etibarən 860 hektardan çox, o cümlədən 2011-ci il ərzində 407 hektar torpaq bərpa edilmişdir.

2011-ci ildə bir çox tədbirlərin həyata keçirilməsi nəticəsində rekultivasiya templəri əhəmiyyətli dərəcədə artmışdır. 2011-ci ildə gücü təxminən 500 m³/gün olan neftlə çirklənmiş torpaqların təmizlənməsi və bərpa edilməsi üzrə SOCAR-BAGHLAN zavodu tikilmişdir. Zavod şlam, torpaq və lay sularını təmizləməyə qadirdir. Təmizlənmiş torpağın tərkibində 1%-dən az neft məhsulları olur. Bundan əlavə, neft şlamlarının zərərsizləşdirilməsi üzrə podratçı təşkilat “Ekol Mühəndislik Xidmətləri” QSC tərəfindən böyük həcmdə işlər həyata keçirilmişdir.

2011-ci il ərzində NQÇİ-nin mədən ərazilərində ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə bir sıra aktual təbiət qoruyucu layihələr həyata keçirilmişdir. Xüsusilə, keçmiş mədən ərazisi olan Qala gölünün ətrafındakı 24 ha torpağın rekultivasiyasiyası aparılmışdır. Bu ərazidən 120,4 m³ neft şlamı çıxarılmışdır.

Bakı şəhərinin Xəzər rayonunda yerləşən Buzovna-Maştağa yatağının ərazisində aparılmış irimiqyaslı rekultivasiya işləri zamanı məhsuldarlığı 550 m³/gün olan təmizləyici qurğu quraşdırılmış və təqribən 1 milyon m³ neftlə çirklənmiş torpaqların təmizlənməsi nəzərdə tutulmuşdur.

ARDNŞ-nin müəssisələri tərəfindən rekultivasiya işləri aparılmış ətraf ərazilərdə və sahələrdə 500 mindən çox ağac və dekorativ kollar əkilmişdir. 2011-ci il ərzində Şirkətin müəssisələrinin ərazilərində 110 mindən artıq ağac əkilmişdir. Bundan əlavə, Şirkətin işçiləri, o cümlədən Ekologiya idarəsinin, “Azəriqaz” İB-nin, Ekol Mühəndislik Xidmətləri şirkətinin Sosial inkişaf şöbəsinin, Sosial departa-

**ARDNŞ-nin fəaliyyəti ilə bağlı istixana effekti yaradan qazların tullantıları, min ton $CO_2$ ekv**

| | 2009 | 2010 | 2011 |
|---|---|---|---|
| **Tam birbaşa və dolayı tullantılar, o cümlədən:** | 14 830.5 | 10 866.9 | 10 731.6 |
| **Birbaşa tullantılar** | 14 277.4 | 10 123.3 | 9 820.5 |
| **Dolayı tullantılar** | 553.1 | 743.6 | 911.1 |

**2009-2011-ci illərdə suyun istifadəsi, mln m$^3$**

| | 2009 | 2010 | 2011 |
|---|---|---|---|
| **Bütün mənbələrdən suyun istifadəsi, o cümlədən:** | 60.9 | 59.4 | 58.5 |
| yeraltı mənbələrdən | 30.9 | 29.4 | 29 |
| yerüstü mənbələrdən | 30 | 30 | 29.5 |

**2009-2011-ci illərdə dövriyyə edən və təkrar-ardıcıl istifadə olunan suyun həcmi, mln m$^3$**

| | 2009 | 2010 | 2011 |
|---|---|---|---|
| **Dövriyyə edən və təkrar-ardıcıl istifadə olunan su** | 172.5 | 128.4 | 50.0 |

**2009-2011-ci illərdə lay sularının əmələ gəlməsi, min m$^3$**

| | 2009 | 2010 | 2011 |
|---|---|---|---|
| **İl ərzində lay sularının əmələ gəlməsi** | 10 380 | 10 700 | 10 648 |

mentin və s. işçiləri tərəfindən bütün ölkə ərazisində ağacların könülü əkilməsi təşkil edilmişdir. Bu aksiya nəticəsində yalnız “Azneft” İB-nin işçiləri tərəfindən 4 mindən çox ağac əkilmişdir.

Neftin dağılmasının qarşısının alınması. Neftin dağılması birbaşa iqtisadi itkilərdən əlavə ətraf mühitə mənfi təsiri, eləcə də torpaqların çirklənməsi ilə bağlı daha əhəmiyyətli maddi və qeyri-maddi itkilərə gətirib çıxarır.

ARDNŞ həm quruda, həm də dənizdə nefin və neft məhsullarının dağılması məsələlərinə böyük diqqət yetirir. Şirkətin Ekoloji siyasətində neftin dağılmasının qarşısının alınması məsələləri prioritet kimi müəyyən edilmişdir. ARDNŞ və FHN arasında neftin dağılmasının qarşısının alınması və ləğv edilməsi üzrə idarələr daxilində planlar mövcuddur, eləcə də dispetçer xidməti yaradılmışdır. Hal-hazırda ARDNŞ-nin mütəxəssisləri neftin dağılmasının qarşısının alınması və ləğv edilməsi üzrə daxili korporativ planın işlənib hazırlanmasında fəal iştirak edirlər.

Neftin dağılması əsasən hasilat və nəqliyyat mərhələlərində işlərin təşkilinə köhnə yanaşmaların tətbiqi, avadanlığın və boru kəməri parkının köhnəlməsi nəticəsində baş verir. Hasilat mərhələsində Şirkət neftin dağılması nəticəsində ətraf mühitin çirklənməsi riskini qazma avadanlığının texniki vəziyyətinə daim nəzarət etməklə və neft hasilatının ən son texnologiyalarını tətbiq etməklə minimuma endirməyə çalışır. Bundan əlavə, hasilat prosesində əmələ gələn və böyük həcmdə neft məhsullarını daxil edən lay sularının utilizasiyasına böyük diqqət yetirilir. Şirkətin bu sahədə həyata keçirdiyi tədbirlər 4.3 saylı “Suyun istifadəsi və su obyektlərinə təsir” fəslində təsvir olunur.

Neftin nəqli mərhələsində dağılmanın səbəblərindən biri boru kəmərlərinin deşilməsidir. Şirkətin magistral neft boru kəmərlərinin ümumi uzunluğu 770 km-dən çoxdur və onlardan 50%-ə yaxını köhnə boru kəmərləridir. Əksər hallarda bu deşilmələr korroziyanın təsiri ilə bağlıdır. Deşilmələrin sayını azaltmaq məqsədilə Şirkətdə planlı yoxlamalar, diaqnostika və boru kəmərlərinin dəyişdirilməsi həyata keçirilir. Belə ki, 2011-ci ildə 53 km borular dəyişdirilmişdir. Bu tədbirlərə çəkilmiş xərclər 7340,1 min manat təşkil etmişdir.

ARDNŞ-nin müəssisələri müstəqil şəkildə boru kəməri parkının vəziyyətinə nəzarət edir və neftin dağılması hallarını izləyir. Hər müəssisədə qəza briqadası yaradılmışdır ki, o, boru kəmərinin deşildiyi hallarda həmin sahəyə gedərək bu deşilməni ləğv edir. Regionda çalışan digər neft şirkətləri ilə məlumat mübadiləsi təşkil olunmuşdur ki, bu da boru kəmərində baş verən qəzalara operativ reaksiya verməyə və deşilmələrin aradan qaldırılması müddətlərini azaltmağa imkan verir.

Şirkət həmçinin boru kəmərlərinin nasazlıqları hallarını izləməyə və onların təmiri və dəyişdirilməsi üçün prioritet sahələrin müəyyən edilməsinə imkan verən müasir proqram təminatının tətbiq edilməsi vasitəsilə qəzaların qarşısının alınması yollarını axtarır. Xüsusilə də, ARDNŞ-də Rocweb xüsusi məlumat bazası işlənib hazırlanmış və tətbiq edilmişdir.

### Tullantılarla rəftar[10], min ton

| | 2010 | 2011 |
|---|---|---|
| İl ərzində əmələ gəlmiş tullantılar, o cümlədən: | 1 068.93 | 132.67 |
| təhlükəli tullantılar | 1 045.64 | 107.47 |
| aztəhlükəli tullantılar | 23.29 | 25.20 |
| İl ərzində istifadə olunmuş tullantılar, o cümlədən: | 15.99 | 0.43 |
| təhlükəli tullantılar | 15.33 | 0.39 |
| təhlükəsiz tullantılar | 0.66 | 0.04 |
| Digər təşkilatlara ötürülmüş, o cümlədən: | 913.56 | 116.85 |
| təhlükəli tullantılar | 891.51 | 94.93 |
| təhlükəsiz tullantılar | 22.05 | 21.92 |

### Qazma və neft şlamlarının əmələ gəlməsi[11], min ton

| | 2010 | 2011 |
|---|---|---|
| Qazma şlamının əmələ gəlməsi | 43.5 | 19.3 |
| Neft şlamlarının əmələ gəlməsi | 91.1 | 25.7 |

### ARDNŞ-nin Tullantı Mərkəzi[12], ton

| | 2010 | 2011 |
|---|---|---|
| Qəbul edilmiş tullantıların cəmi, o cümlədən: | 6 481.3 | 26 024.0 |
| təhlükəli tullantılar | 6 458.0 | 25 984.1 |
| təhlükəsiz tullantılar | 23.3 | 39.9 |



Bu baza Respublikanın bütün ərazisi üzrə Şirkətin boru kəmərləri şəbəkəsinin parametrləri haqqında məlumatı real vaxtda əldə etməyə imkan verir.

Görülən tədbirlər nəticəsində 2011-ci ildə Şirkətin obyektlərində mühüm neft dağılmaları qeydə alınmamışdır.





# Personal



**ARDNŞ insan kapitalını özünün dəyərli aktivi hesab edir, heyətin inkişafına qoyulan investisiyaları isə öz gələcəyinə qoyulan investisiyalar kimi qəbul edir.** Şirkət öz işçilərinə karyera yüksəlişi və peşəkar inkişaf imkanlarını təklif edir və onların iş şəraitlərinin yaxşılaşdırılması istiqamətində işlər görür. Şirkətin heyətin idarə edilməsi siyasətinin daha bir ənənəvi elementi - əməkdaşların sosial yardımla, o cümlədən mənzillərlə təmin edilməsidir.

Yüksək ixtisaslı mütəxəssislərin strateji əhəmiyyətini dərk edərək, Şirkət 2011-ci ildə öz qüvvəsini personalın seçilməsi sisteminin modernizasiyası və şəffaflığının artırılması üzərində cəmləmişdir. **Bundan əlavə, hesabat ilində Şirkət mühəndis heyətinin əmək haqlarını artırmış, bu isə onun əmək bazarında rəqabətə yararlığını artırmaq və nəticə etibarı ilə dəyərli kadrların digər şirkətlərə axmasını azaltmaq imkanını yaratmışdır.**

Fəaliyyəti təhlükəli istehsalat obyektlərinin istismarı ilə bağlı olan əməkdaşların səhhəti və təhlükəsizliyi Şirkətin danılmaz dəyərlərindəndir. Buna görə də Şirkət əməyin təhlükəsizliyi və mühafizəsi üzrə idarəetmə sistemini təkmilləşdirməyə davam edərək, onu beynəlxalq standartlara və aparıcı təcrübələrə uyğunlaşdırmağa çalışır.

## Personalın idarə edilməsinə yanaşma

Personalın idarə edilməsi mərkəzləşdirilmiş qaydada ARDNŞ-nin Baş İdarəsi səviyyəsində aparılır. Şirkətdə Kadrların idarə edilməsi komitəsi və 2011-ci ilin aprel ayında yaradılmış İnsan resursları departamenti fəaliyyət göstərir. Kadrların idarə edilməsi komitəsinin əsas vəzifələri Şirkətin baş ofisini yüksək keyfiyyətli kadrlarla vaxtında təchiz etmək, struktur vahidlərdə rəhbər vəzifələrə namizədlər axtarmaq, eləcə də ARDNŞ-nin kadr siyasətinin struktur bölmələrinin müvafiq xidmətləri ilə həyata keçirilməsinə nəzarət etməkdir. İnsan resursları departamenti kadrların seçilməsi və işə götürülməsi, işçilərin karyera inkişafının planlaşdırılması və onların əmək fəaliyyətinin qiymətləndirilməsi, eləcə də Şirkətdə kadrların idarə edilməsi proseslərinin gələcəkdə təkmilləşdirilməsi, işçilərin təklif və rəylərinin baxılması məqsədilə təsis edilmişdir. Departamentin tərkibinə Uçot və işçilərlə əlaqələr şöbəsi, İşə qəbul şöbəsi və Təlim və inkişaf şöbəsi daxildir.

Şirkətdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq işlənib hazırlanmış daxili prosedur və müddəalara əsaslanan Heyətin idarə edilməsi siyasəti təsdiq edilmişdir. Siyasətin həyata keçirilməsi üzrə məsuliyyəti bütün kadr xidmətləri, eləcə də heyətlə qarşılıqlı əlaqə proseslərinin ümumi rəhbərliyini həyata keçirən struktur bölmələrinin rəhbərləri daşıyır.

Səriştəli heyət Şirkətin uzunmüddətli rəqabət üstünlüyünün mənbəyi kimi çıxış

edir. Bu gün heyətin idarə edilməsi sisteminin yaxşılaşdırılması üzrə arası kəsilmədən aparılan iş heyəti effektiv planlaşdırmaq, cavanların tələb olunan ixtisaslar üzrə fəal hazırlanması hesabına kadrlarla operativ təmin etmək, eləcə də Şirkətin korporativ dəyərlərinə, strateji məqsəd və vəzifələrinə şərik olan yüksək keyfiyyətli işçiləri cəlb etmək və saxlamaq imkanını yaradır.

**Azərbaycanda ən iri işə götürənlərdən biri olaraq, ARDNŞ minlərlə insanı iş yerləri və qənaətbəxş əmək haqqı ilə təmin edir.** 2011-ci ildə heyətin sayı 77140 nəfər olmuşdur.

**2009-2011 illərdə işçilərin sayının dinamikası, nəfər**




**2009-2011 illərdə işə qəbul edilmiş və işdən çıxmış işçilərin sayı, nəfər** [13]




**2009-2011 illərdə kadr axını, %**




[13] Bu məlumatlara işçilərin Şirkətin daxilində başqa vəzifəyə keçirilməsi daxil deyildir.

## 2009-2011 illərdə işçilərin cinslərə bölünməklə sayı, nəfər




## 2011-ci il üzrə işçilərin kateqoriyalara və cinslərə bölünməklə sayı, nəfər






## 2011-ci il üzrə işçilərin yaşlara bölünməklə sayı, nəfər



**Ən yaxşı tələbələrə ARDNŞ təqaüdlərinin verilməsi**

ARDNŞ-nin təqaüdləri ali məktəblərin ən istedadlı məzunlarının Şirkətə işə cəlb olunması üçün effektiv mexanizmdir. 2011-ci ildə ARDNŞ-də iki təqaüd müsabiqəsi təşkil olunmuşdur: XI Şirkətin təqaüdlər müsabiqəsi və xarici ali məktəblərdə təhsil almaq üçün təqaüdlər müsabiqəsi. XI müsabiqənin 200 təqaüdünə Azərbaycanın 18 ali məktəbindən olan 1928 tələbə iddia etmişdir. Xarici ali məktəblərdə təhsil almaq üçün təqaüdləri bu günə qədər 177 tələbə almışdır. Bunlardan 135 təqaüdçü xaricdə təhsil alır, 42 təqaüdçü isə təhsilini bitirib ARDNŞ-də işləyir. Ümumiyyətlə, müsabiqələrin nəticələri üzrə son iki ildə ARDNŞ-də çalışmaq üçün 88 təqaüdçü-məzun cəlb edilmişdir.

Son illərdə Şirkətin strukturunda bir sıra əhəmiyyətli dəyişikliklər aparılmışdır ki, bunlar heyətin sayının dinamikasına təsir göstərmişdir. 2010-cu ildə ARDNŞ-nin tərkibinə işçilərinin sayı 6 min nəfərdən çox olan "Azərkimya" İB daxil olmuşdur ki, bu da həmin dövrdə işçilərin sayının əhəmiyyətli artmasına səbəb olmuşdur. 2011-ci ildə, Azərbaycan Respublikasında sosiasiyasətin təkmilləşdirilməsi ilə bağlı olaraq, bir sıra sosial obyekt dövlətin balansına köçürülmüşdür. Həmçinin bir sıra istehsal obyekti Şirkətin tərkibindən çıxmışdır. Bundan əlavə, istehsalatın səmərəsini artırmaq məqsədilə Şirkət öz müəssisələrində heyətin sayının optimallaşdırılmasını həyata



keçirməyə başlamışdır. **Öz işçiləri qarşısında olan məsuliyyətini dərk edərək, Şirkət optimallaşdırma zamanı mənfi nəticələrin minimuma endirilməsi üçün bütün mümkün tədbirləri görmüşdür.** Belə ki, Şirkətdən çıxan işçilərə əmək haqqının beş mislində kompensasiya ödənilmişdir.

Bu cür tədbirlər və işçilərin təbii qaydada işdən çıxması nəticəsində 2011-ci ildə siyahı sayı 2.4 min nəfərədək azalmışdır. 2011-ci ildə kadr

**2011-ci ildə ARDNŞ-də Yay məktəbinin təşkil olunması**

2011-ci ilin 1 -12 sentyabr müddətində Şirkətdə II Yay məktəbi təşkil olunmuşdur. İki həftəlik aktiv təlimdən sonra Yay məktəbinin iştirakçıları neft-qaz sahəsi ilə bağlımüxtəlif mövzular üzrə ətraflı bilik əldə etdilər, o cümlədən:

- neft-qaz mədənlərinin geologiyası və fizikası,
- quyuların qazılması,
- neftin və qazın hasili,
- neft və qaz emalı,neft-kimya,
- ekologiya və alternativ energetika.

Yay məktəbində bütün dərslər ARDNŞ-nin mütəxəssisləri və nüfuzlu xarici ali məktəblərin məzunları tərəfindən mühazirə, müzakirə və intellektual oyunlar formasında tədris edilmişdir.

Məktəbin şagirdləri Bibiheybət NQÇİ, Heydər Əliyev adına Neft Emalı Zavodu və Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavoduna bir sıra təhsil ekskursiyalarında iştirak etmişdirlər.

Yay məktəbinin mühazirələri neft hasilatı nəzəriyyəsinin öyrənilməsi və istehsalatda onun tətbiqi üzrə müşahidə formasında həyata keçirilir. Belə yanaşma bütün məktəb iştirakçıları tərəfindən neft sahəsində işin xüsusiyyətlərinin daha yaxşı başa düşülməsini təmin edir.

axınının səviyyəsi 7.6%, Şirkətin işçilərinin orta yaşı – 42.5 il olmuşdur.

ARDNŞ dörd əsas işçi kateqoriyasını ayırır: fəhlələr, mütəxəssislər, texniki icraçılar və rəhbərlər. ARDNŞ-nin fəaliyyətinin xüsusiyyəti Şirkətin tərkibində fəhlə peşələrinin üstünlüyünü müəyyən edir, habelə heyətin gender tərkibinə təsir edir. **Personalın seçilməsi və inkişafı zamanı Şirkət, işçinin peşəkar keyfiyyətlərini əsas götürərək, hüquqi bərabərlik prinsipinə riayət edir və diskriminasiyanın bütün formalarından çəkinir.** İnsan resursları departamenti bu siyasətin həyata keçirilməsini kadrların tərkibi və kateqoriyaları, ARDNŞ-nin bütün struktur vahidlərinin işçilərinin yaşı, təhsili, stajı, cinsi və ixtisası üzrə məlumatları özündə cəmləyən aylıq hesabatların köməyi ilə izləyir.

ARDNŞ-nin əsas məsələlərindən biri – ölkənin neft sənayesinin qarşısında duran məsələləri həll etmək qabiliyyətində olan ali təhsilli yüksək ixtisaslı kadrların cəlb edilməsidir. Heyətin toplanması İnsan resursları departamenti tərəfindən “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin standartlaşma sistemi. Rəhbər işçi və mütəxəssislər üzrə vakansiyaların idarə olunması” daxili standarta uyğun olaraq həyata keçirilir. Standarta uyğun olaraq Şirkətdə bütün vəzifələr üzrə vakansiyalar müsabiqə yolu ilə doldurulur. İstisna olaraq, Şirkətin müəssisələrində əsas vəzifələrə işçilər ARDNŞ-nin prezidenti Rövnəq Abdullayevin əmri ilə təyin edilir.

Müsabiqə yolu ilə ARDNŞ-nə yeni işçilərin seçilməsi və işə götürülməsi üçün Standart iki nümunəvi sxem müəyyən edir – Şirkətin daxilində və Şirkətdən kənarda. İlk əvvəl vəzifələr üzrə vakansiyalara namizədlər Şirkətin daxilində axtarılır. Şirkətdə işləyən namizədlər vakansiyanın tələblərinə cavab vermirsə, vakansiya haqqında elan ARDNŞ-nin veb-səhifəsində və KİV-də yerləşdirilir. Bundan əlavə, Şirkətdə müsabiqə seçimini artıq keçmiş mütəxəssislər bazası formalaşır ki, vəzifəyə namizədlər seçilən zaman həmin baza da nəzərə alınır.



ARDNŞ-də işçilərin seçilməsi və işə götürülməsinin daha bir prioritet istiqaməti – gənc mütəxəssislərin və ali təhsil ocaqlarının məzunlarının cəlb edilməsidir. Şirkət ölkənin orta məktəbləri, texniki peşə məktəbləri və ali məktəbləri ilə fəal əlaqə saxlayır, tələb olunan ixtisaslar üzrə tələbələr üçün təqaüd proqramları və yay praktikası təşkil edir.

Şirkətə cavan kadrların cəlb edilməsi strategiyası işlənib hazırlanmışdır. Strategiya bir neçə proqramı özündə birləşdirir və orta məktəblərin, texniki peşə məktəblərinin və ali məktəblərin tələbələrini əhatə edir. Bu proqram çərçivəsində Şirkət Azərbaycanın orta məktəblərinin tələbələri üçün aşağıdakı tədbirləri təşkil edir və dəstəkləyir:

- Şagirdlərin mühəndis-neftçi peşəsi ilə tanış olması üçün ARDNŞ-nin nümayəndələri ilə müntəzəm görüşlərin keçirilməsi,
- İstedadlı şagirdlərin beynəlxalq olimpiadalarda və müsabiqələrdə iştirakı üçün maddi dəstək,
- Məktəblərdə viktorina və olimpiadaların keçirilməsi,
- 2012-ci ildə Bakı İstedadlar Məktəbinin – ibtidai və orta təhsil proqramları üzrə 1200 şagirdi əhatə edəcək təhsil kompleksinin tikintisi üzrə işlərin təşkil olunması.

Texniki peşə məktəblərinin məzunları müsabiqə yolu ilə müxtəlif ixtisaslar üzrə ARDNŞ-nin kadr hazırlığı mərkəzində təhsil almaq imkanına malikdir. Təhsili başa vurduqdan sonra

Mərkəzin məzunları Şirkətdə çalışmaq üçün təkliflər alırlar. Heydər Əliyev Fondunun dəstəklədiyi uşaq evlərindən kimsəsiz uşaqlar da Mərkəzin tələbələri ola bilər. Bu gün Mərkəzdə təhsilini tamamlamış 35 kimsəsiz uşaq ARDNŞ-də işləyir.

Ali məktəb tələbələri hər il ARDNŞ təqaüdlərini qazanmaq üçün müsabiqələrdə iştirak edirlər. Ali məktəbdə təhsilini bitirdikdən sonra təqaüdçülərə Şirkətdə iş təklif edilir: ötən illərin 120-dən çox təqaüdçüsü artıq ARDNŞ-də işləyir. Bundan əlavə Şirkət Azərbaycanın ali məktəblərinin tələbələrinə Böyük Britaniya, ABŞ, Türkiyə, Norveç və digər ölkələrin aparıcı təhsil müəssisələrində təhsil almaq üçün təqaüdlər təklif edir. Şirkətdə işləməyə gəlmiş ARDNŞ-nin bütün təqaüdçü tələbələri üçün xüsusi sosial güzəşt – Şirkət tərəfindən mənzil alğısı zamanı şərikli maliyyələşdirmə tətbiq edilir.

Təqaüd proqramlarından əlavə 2010-cu ildən etibarən ARDNŞ tələbələr üçün Yay praktikası və Yay məktəbi təşkil edir.

Yay praktikası tələbələrə ali məktəblərdə əldə edilmiş bilikləri Şirkətdə gündəlik iş zamanı tətbiq etmək imkanını verir. Bundan əlavə, praktika zamanı tələbələr əmək haqqı da alırlar. 2011-ci ildə ARDNŞ-də Yay praktikasını 226 tələbə müvəffəqiyyətlə keçmişdir, bunlardan çoxu təhsilini bitirdikdən sonra Şirkətdə çalışmaq fikrindədir.

Şirkət Yay məktəbini neft sənayesində işləməyə maraqlı olan tələbələrin cəlb edilməsi üçün təşkil edir.

Yay məktəbində tələbələr neft hasilatının xüsusiyyətləri, Şirkətin tarixi, nailiyyətləri və ümumiyyətlə bu sənaye ilə tanış olurlar. Yay məktəbinin müəllimləri ARDNŞ işçiləridir.

ARDNŞ-nin işçi heyətinin stimullaşdırılması və motivasiya sisteminə əmək haqqı, maddi yardım, pul mükafatları, eləcə də Şirkətdə icra edilən müxtəlif sosial proqramlar çərçivəsində tətbiq olunan güzəştlər daxildir.

Şirkətdə əmək haqqı 2007-ci ildə təsdiq olunmuş Əməyin ödənilməsi haqqında əsasnaməyə uyğun olaraq hesablanır. Əsasnaməyə uyğun olaraq əmək haqqı hesablanarkən Vahid respublika tarif (dərəcə) komissiyasının göstərişinə əsaslanan 18 kateqoriyalı sistemi nəzərdə tutan tarif cədvəli tətbiq olunur. Əsasnamə həmçinin fərdi iş nəticələrinə görə əmək haqqına əlavələri müəyyən edir.

2011-ci ildə Şirkət tarif şəbəkəsini təkmilləşdirmək üçün müəyyən tədbirlər görmüş və bunun nəticəsində əmək haqları 5-15% artmışdır. Əmək haqqının 2012-ci ildə də artması planlaşdırılır.

Tapşırılmış işlərin icrası zamanı özünü yaxşı tərəfdən göstərmiş işçilərə birdəfəlik mükafatlar təyin edilir və həmin işçilərin əmək haqlarının 100%-dən çox olmayan məbləğdə ödənilir.

Şirkət başa düşür ki, işçilər layiqli qazanc əldə etməklə yanaşı optimal əmək və yaşayış şəraitlərinə də malik olmalıdır. Şirkətin sosial yardımının başlıca istiqamətləri aşağıdakılardır:

- ev şəraitinin yaxşılaşdırılması,




- çətin həyat vəziyyətinə düşmüş işçilərə təyinatlı maddi yardımın göstərilməsi, tibbi xidmətlərin təqdim edilməsi,
- işçilərin və onların ailə üzvlərinin istirahətinin təşkil edilməsi,
- yemək üçün əlavə ödənişlərin aparılması.

Maddi yardım işçilərə Şirkətdə qüvvədə olan “Maddi yardımın göstərilməsi haqqında Əsasnamə”yə uyğun olaraq təqdim edilir. Həmin Əsasnaməyə müvafiq olaraq, Şirkətin işçiləri və onların ailə üzvləri ödəniş almağa iddia edə bilərlər. Maddi yardımın verilməsi haqqında qərarı ARDNŞ müəssisələrində xüsusi yaradılmış, tərkibinə həmkarlar ittifaqının nümayəndələri daxil olan Maddi yardımın verilməsi komissiyaları qəbul edir. Bundan əlavə, maddi yardım ARDNŞ-nin prezidenti Rövnəq Abdullayevin göstərişinə uyğun olaraq verilə bilər.

ARDNŞ Azərbaycan Respublikasında öz işçilərini mənzillə təmin etmək üçün işlər görən yeganə şirkətdir. Hal-hazırda Şirkətin 6000-dən çox işçisinin mənzil şəraitlərinin yaxşılaşdırılmasına ehtiyacı vardır. Bu məsələnin həlli üçün ARDNŞ aşağıdakı istiqamətlərdə iş görür:

**ARDNŞ işçilərinə maddi yardım**

| Maddi yardım alanların kateqoriyaları | Maddi yardımın alındığı hallar | Maddi yardımın məbləği |
|---|---|---|
| **Şirkətin işçisinin ailə üzvlərindən biri** | Şirkətin işçisinin ölümü | Minimal aylıq əmək haqqının 20 misli |
| **Şirkətin işçisi** | Şirkətin işçisinin ailə üzvünün ölümü | Minimal aylıq əmək haqqının 5 misli |
| **Şirkətin işçisinin övladı 18 yaşa (əyani təhsil aldığı halda 23 yaşa) çatana qədər ona himayəlik edən ailə üzvlərindən biri** | Şirkətin işçisinin ölümü | Minimal aylıq əmək haqqının 2.5 misli |
| **Şirkətin işçisinin övladı 18 yaşa (əyani təhsil aldığı halda 23 yaşa) çatana qədər ona himayəlik edən ailə üzvlərindən biri** | Şirkətin işçisinin Qarabağ müharibəsi və ya 20 yanvar 1990-cı il hadisələri nəticəsində ölümü | Minimal aylıq əmək haqqının 5 misli |

• yeni yaşayış binalarının tikintisi,

• ev almaq üçün güzəştli ipoteka kreditlərinin təqdim edilməsi,

• ARDNŞ-nin mülkiyyətində olan torpaqların Şirkətin işçiləri tərəfindən evlərin tikintisi üçün təqdim edilməsi.

2011-ci ilin sonunadək Şirkətin işçilərinin mənzillə təmin edilməsi Şirkət tərəfindən Azərbaycanın müxtəlif rayonlarında yeni yaşayış binalarını tikməklə həyata keçirilirdi. 2011-ci ilin sonunda Azərbaycan Respublikasının Nazirlər Kabineti ARDNŞ-nin bütün yaşayış fondunun icra hakimiyyəti orqanlarının balansına keçirilməsi haqqında qərar qəbul etmişdir. Bununla əlaqədar, ARDNŞ rəhbərliyi bu istiqamətdə işlərin dayandırılması qərarını vermişdir. Alternativ olaraq, ARDNŞ mənzillərin alınması üçün öz işçilərinə güzəştli ipoteka kreditlərinin verilməsi proqramını inkişaf etdirir.

Güzəştli ipoteka kreditlərinin verilməsi üçün ARDNŞ neftçilərin "Neftçi" adlı mənzil-tikinti kooperativini cəlb edir. Kooperativ üzvlərinə ildə 4% dərəcəsi ilə on illik müddətə ipoteka kreditləri verilir. Mənzilin ödənilməsi üçün ilk ödənişi ARDNŞ aparır, bu zaman ödənişin məbləği işçinin mənzil növbəsində olmasının müddəti və ya onun Şirkətin təqaüd proqramlarında iştirakından asılı olur. Belə ki, ARDNŞ-nin təqaüd proqramı çərçivəsində xaricdə təhsil almış gənc mütəxəssislər mənzilləri xüsusi şərtlərlə almaq imkanına malikdir. Hazırda Şirkət "Neftçi" kooperativinin üzvlərini mənzillərlə təmin etmək üçün Badamdar (96 mənzil), Xətai rayonu (279 mənzil) və Lökbatan qəsəbəsində tikinti işlərini aparır. Gələcəkdə Şirkət güzəştli ipoteka kreditlərini öz mənzil siyasəti üçün əsas alət kimi istifadə etmək niyyətindədir.



Güzəştli ipoteka kreditlərindən əlavə ARDNŞ ona məxsus olan qeyri-yaşayış binaların və ya torpaq sahələrinin gələcəkdə Şirkətin işçilərinin mülkiyyətinə verilməsi üçün təyinatının dəyişdirilməsi üzrə işlər görür. Əldə edilmiş sahələr işçilər tərəfindən şəxsi yaşayış evlərinin tikintisi üçün istifadə olunur. 2011-ci ildə bu cür evlərlə Şirkətin 40-dan çox işçisi təmin edilmişdir.

ARDNŞ-nin sosial siyasə-

**2009-2011-ci illərdə ARDNŞ-nin struktur bölmələrinin sosial xərclərinin həcmləri, min manat**

| Struktur bölmə | 2009 | 2010 | 2011 |
|---|---|---|---|
| "Azərneftyağ" NEZ | 2 208 | 1 909 | 1 529 |
| "Azneft" İB | 4 170 | 4 193 | 4 767 |
| Neft kəmərləri idarəsi | 991 | 723 | 750 |
| Kompleks qazma işləri tresti | 6 896 | 6 117 | 5 366 |
| Geologiya və geofizika işləri | 1 232 | 1 234 | 1 267 |
| QEZ | 4 503 | 4 575 | 4 920 |
| Neftqaztikinti tresti | 5 177 | 4 858 | 5 465 |
| Marketinq və iqtisadi əlaqələr idarəsi | 666 | 528 | 530 |
| Ekologiya idarəsi | 264 | 231 | 288 |
| "Neftqazelmitədqiqatlayihə" institutu | 4 234 | 3 848 | 4 179 |

tinin ənənəvi elementlərinə işçilərə və onların ailə üzvlərinə pulsuz tibbi yardımın təqdim edilməsi aiddir. Şirkət müxtəlif tibbi müayinələrin keçirilməsi, ambulator müşahidə və təcili yadım üçün vəsaitlər ayırır. Hal-hazırda Şirkətin balansında olan sosial obyektlərin bələdiyyə orqanlarının balansına keçirilməsi işləri görülür. 1 yanvar 2012-ci ildən başlayaraq Şirkət könüllü tibbi sığorta sisteminə keçir. Könüllü sığorta müqaviləsinə uyğun olaraq ARDNŞ işçilərinin istifadə edə biləcəyi tibb müəssisələrinin sayı və eynilə göstəriləcək xidmətlərin çeşidi artacaq. Bundan əlavə Şirkət öz təqaüdçülərinə pulsuz tibbi yardım almaq imkanını verir.

İşçilər və onların ailə üzvləri hər il sanatoriya-kurort və sağlamlıq müəssisələrinə pulsuz və ya qismən ödənişli putyovkalar alır. 2011-ci ildə ARDNŞ-nin rəhbərliyi tərəfindən Şirkətin 13000-dən çox işçisi və onların ailə üzvlərinin istirahəti və Şirkətin müalicəyə ehtiyacı olan 1500-dən çox işçilərinin sanatoriya-kurort müalicəsi təşkil edilmişdir.

Şirkət sosial siyasətinin bu istiqamətinin dəstəklənməsini gələcəkdə də davam etdirmək niyyətindədir. İşçilərin sağlamlaşdırılması və sanatoriya müalicəsi üzrə proqramların stabil maliyyələşdirilməsi müəssisələrə əməyin səmərəsinə təsir göstərən peşəkar xəstəliklər riskini əhəmiyyətli dərəcədə azaltmaq imkanı verir.



**2010-2011-ci illərdə əməyin mühafizəsi və sənaye təhlükəsizliyi xərcləri, min manat**

| | 2010 | 2011 |
|---|---|---|
| Əməyin mühafizəsi və sənaye təhlükəsizliyi xərcləri, o cümlədən: | 25 736 | 31 657 |
| İş şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər | 14 407 | 15 302 |
| Xüsusi geyim və ayaqqabı, fərdi mühafizə vasitələri | 9 481 | 14 542 |
| İşçilərin südlə təchiz edilməsi | 1 404 | 1 337 |
| Digər xərclər | 444 | 476 |

**2009-2011-ci illərdə əməyin təhlükəsizliyi sahəsində məhsuldarlıq göstəriciləri**

| | 2009 | 2010 | 2011 |
|---|---|---|---|
| **Bədbəxt hadisələr zamanı zərərçəkənlərin ümumi sayı** | 23 | 21 | 24 |
| **Ölümlə nəticələnən halların sayı** | 4 | 5 | 14 |
| **İstehsalatda travmatizm əmsalı (İTƏ)** | 0.043 | 0.034 | 0.038 |
| **İtirilmiş günlərin əmsalı (İGƏ)** | 2.96 | 2.81 | 3.25 |
| **İş yerində olmama əmsalı (İYOƏ)** | 0.00012 | 0.00011 | 0.00013 |

İşçilərin pensiya təminatı Şirkətin Azərbaycanın Dövlət Sosial Müdafiə Fonduna müntəzəm ödənişlərin aparılması hesabına həyata keçirilir. Şirkət təqaüdə çıxan işçilərinə pensiya ödənişlərinin stabilliyinə əmindir, çünki ölkənin pensiya sistemində aparılmış islahatlar sayəsində Dövlət Sosial Müdafiə fondu pensiya sığortasının beynəlxalq standartlarına tam cavab verir. 2011-ci ildə Şirkətin fonda ödənişləri 134.5 milyon manat təşkil etmişdir.

Şirkət işçilərin qeyri-maddi stimullaşdırılması formalarına da böyük əhəmiyyət verir. İşçinin mənəvi məmnunluğu onun Şirkətin inkişafında maraqlı olmasına səbəb olur, bu isə öz növbəsində əməyin səmərəsini artırır. İşdə xüsusi nailiyyətlər əldə etmiş işçilər müxtəlif diplom və fərqlənmə nişanları ilə təltif edilir.

Bundan əlavə Şirkətdə mühüm tarixlərə, xüsusilə Neftçilər gününə həsr olunmuş müxtəlif tədbirlər keçirilir.

ARDNŞ həmkarlar ittifaqları ilə birgə işin vacib nəticələrinə aşağıdakıları aid edir:

- Şirkətin işçilərinin əmək haqqının artırılması,
- əmək şəraitlərinə görə əlavə ödənişlərin tətbiq edilməsi,
- gecə növbəsində işləyən işçilərə 30% əlavə ödənişin tətbiq edilməsi,
- növbə çəkmə günləri üçün xüsusi ödənişin müəyyən edilməsi.

İşçilərin Şirkətdə sosial-əmək münasibətlərinin formalaşmasına birbaşa təsir göstərmək imkanı rahat əmək şəraitini yaradır, işçiləri yeni məqsədlərə nail olmağa





həvəsləndirir və işçi heyətinin Şirkətdə saxlanılması üçün vacib alətlərdən biri kimi çıxış edir. Bundan əlavə, həmkarlar ittifaqı təşkilatlarının yüksək fəallığı işçilərin assosiasiya azadlığı və kollektiv danışıqların aparılması hüququnu tamamilə reallaşdırmaq imkanını yaradır.

ARDNŞ-nin insan resursları departamentinə daxil olan təlim və inkişaf şöbəsi hər il Şirkətin strateji vəzifələrini və əlavə təkmilləşdirmə tələb edən sahələri nəzərə almaqla işçi heyətinin təlimləndirilməsi və peşəkar inkişaf planını hazırlayır. Bu planı 2011-ci ildən etibarən Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi (TTSİ) həyata keçirir. TTSİ fəaliyyəti 4 struktur bölmənin — Kadr hazırlığının təşkili Mərkəzi, Dənizdə insan həyatının mühafizəsi üzrə Təlim Mərkəzi, "Qala" Təlim-Tədris Mərkəzi və Sumqayıtda təlim-

**ARDNŞ TTSİ-nin kadr hazırlığının təşkili mərkəzində tələbələrin sayı, nəfər**




**ARDNŞ TTSİ-nin kadr hazırlığının təşkili mərkəzində təlim qruplarının sayı**






tədris mərkəzinin maddi-texniki bazasında təşkil edilir.

TTSİ Şirkətin işçilərinin aşağıdakılar da daxil olmaqla aparıcı beynəlxalq standartlara uyğun olaraq təlimləndirilməsi üzrə kompleks şəkildə işlər həyata keçirir:

• neft və digər sənaye sahələri üçün ixtisaslı kadrların hazırlanması və inkişafı,

• Şirkətdə tələb olunan ixtisaslar üzrə işçilərin beynəlxalq standartlara uyğun olaraq təlimləndirilməsi;

• peşəkar kurs və təlimlərin təşkil edilib keçirilməsi,

• sertifikasiyanın nəzəri əsasları və beynəlxalq standartlaşdırma üzrə metodiki və texniki dəstək,

• yeni işçilərə təhlükəsizlik texnikası və əməyin mühafizəsi qaydalarının öyrədilməsi,

• kurslara cəlb edilmiş mühəndis-texniki işçilərin, dalğıcların, matrosların və dəniz neftçilərinin sertifikasiyası.

Peşəkar təcrübənin və qabaqcıl təlimləndirmə təcrübəsinin mübadiləsi üçün TTSİ Türkiyə, ABŞ, Böyük Britaniya, Yaponiya və Ukrayna kimi ölkələrdə müxtəlif təhsil idarələri ilə qarşılıqlı əlaqədədir.

Kadr hazırlığının təşkili mərkəzi Şirkətin işçi heyətinin təlimləndirilməsi, inkişafı və attestasiyası üzrə TTSİ-nin əsas bölməsidir. Mərkəz ARDNŞ TTSİ-nin tərkibinə 2011-ci ildə daxil olmuşdur.

Ümumiyyətlə, 2011-ci ildə Kadr hazırlığının təşkili mərkəzində 6912 nəfər təlim keçmiş, bu da 2010-cu ildə tələbələrin sayından 1.5 dəfə çoxdur.

Mərkəzin bütün tələbələri qruplarda təlim keçir. 2009-cu ildən 2011-ci ilədək Mərkəzdə təlim qruplarının sayı xeyli artmışdır. Bu zaman ARDNŞ işçiləri üçün təlimləndirmə, inkişaf və sertifikasiya ixtisaslarının sayı isə 12.5% artmışdır.

Gələcəkdə Şirkət tədris edilən proqram və kurslar üzrə təlim prosesinin təkmilləşdirilməsini, eləcə də qabaqcıl xarici standartlara cavab verən yeni proqram və ixtisaslar üzrə vakansiya elan etməyi planlaşdırır.

Sumqayıtda dördüncü TTSİ təlim mərkəzinin tikintisi ilə bağlı yaxın ildə işçilərin TTSİ mərkəzlərində təlimləndirilməsi ilə əlaqədar olaraq Şirkətin məsrəfləri artacaqdır.



# Təhlükəsiz əmək şəraitlərinin təmin edilməsi

İşçilər üçün təhlükəsiz iş şəraitinin yaradılması onların həyat və səhhətinin qorunması Şirkətin başlıca prioritetidir. Şirkətdə əməyin mühafizəsi və sənaye təhlükəsizliyi sahəsində məqsəd və vəzifələri müəyyən edən, habelə ARDNŞ-nin bütün struktur bölmələrinə və Baş idarəsinə aid olan təhlükəsiz iş şəraitinin prinsiplərini təyin edən əməyin mühafizəsinin vahid idarəetmə sistemi işlənib hazırlanmışdır. Şirkətin əməyin mühafizəsi və sənaye təhlükəsizliyi sahəsində icra və nəzarətə görə məsul orqanları qismində hər bir struktur bölmədə təşkil olunmuş əməyin təhlükəsizliyi üzrə komissiyalar çıxış edir. Şirkətin müəssisələrində qəza hallarında işçilərin hərəkətlərini ətraflı təsvir edən, bədbəxt hadisələrin və zədələrin ehtimalını azaltmaq imkanını yaradan qəza hallarının aradan qaldırılmasına aid planları işlənib hazırlanmışdır.

Səmərənin artırılması məqsədilə Şirkətin rəhbərliyi tərəfindən əməyin mühafizəsi sahəsində idarəetmə sisteminin sistematik analizi aparılır və onun gələcəkdə təkmilləşdiriləcək istiqamətləri müəyyən edilir. Belə ki, 2011-ci ildə Şirkətdə Sağlamlıq və əməyin təhlükəsizliyi idarəsi yaradılmışdır. Onun vəzifələrinə əməyin mühafizəsi və sənaye təhlükəsizliyi sahəsində görülən tədbirlərin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi daxildir. Bundan əlavə, Şirkətin bütün struktur bölmələrində sənaye təhlükəsizliyi və əməyin mühafizəsi sahəsində tələblərin yerinə yetirilməsi üzrə nəzarəti gücləndirmək məqsədilə müdirin əməyin mühafizəsi üzrə müavini vəzifəsi tətbiq edilmişdir. Bununla yanaşı işçilərin yanğın zamanı, neft bazalarında, dəniz nəqliyyatının istifadə edilməsi zamanı və ümumiyyətlə neft sənayesi obyektlərində hərəkətlərini nizamlayan bir sıra sənədlər işlənib hazırlanmışdır.

Şirkət öz fəaliyyətinin OHSAS18001 beynəlxalq standartının tələblərinə uyğunluğu baxımından sertifikasiyası ilə fəal məşğul olur.



ARDNŞ-nin bu standarta keçməsi prosesi yekun mərhələdədir, belə ki, bu gün Şirkətin struktur bölmələrinin yarısından çoxu sertifikasiyanı uğurla başa çatdırmışdır.

İş yerlərində təhlükəsizliyin təmin edilməsinin və işçilərin qarşılıqlı məsuliyyətinin artırılmasının mühüm elementlərindən biri - işçilərin fasiləsiz olaraq birlikdə həyata keçirdikləri istehsalata nəzarət sistemidir. Bunun üçün Şirkətdə bütün işçilərə təhlükəsizlik texnikası qaydalarının yerinə yetirilməsinə təsir göstərmək imkanını verən Stop-kart sistemi tətbiq edilir. Təhlükəsizlik texnikası qaydalarının pozulması üzə çıxarılarsa, işçi istehsal prosesini dayandırıb qaydaları pozan şəxsə onun hərəkətlərinin mümkün nəticələrini izah edə bilər.

Şirkət peşə xəstəliklərinin qarşısının alınmasına lazımi diqqət yetirir. Bu məqsədlə istehsalçı heyət illik tibbi müayinələrdən keçir, bu isə işçilərin səhhətinin vəziyyətini müşahidə etmək və xəstəliklərin ilkin əlamətlərini üzə çıxarmaq imkanını yaradır. Mütəmadi tibbi müayinələrin nəticələri əsasında müəssisə işçilərinin sağlamlığının qorunması və müalicəsi üzrə tədbirlər görülür. İş yerləri müəyyən edilmiş gigiyena normaları və əməyin mühafizəsinin tələblərinə uyğun olaraq təşkil edilir, iş yerlərinin mütəmadi attestasiyası aparılır, üzə çıxarılmış zərərli amillər aradan götürülür. Şirkətin bütün müəssisələrində mütləq sanitariya nəzarəti həyata keçirilir və sənaye-sanitariya laboratoriyaları fəaliyyət göstərir. Bundan əlavə neftçıxarma platformalarında iş şəraitinin yaxşılaşdırılmasına diqqət yetirilir, belə ki, işçilərin isti xörəklərlə təmin edilməsi təşkil edilir, yeməkxanalar tikilir və yenidən qurulur, habelə platformalar suyun şirinləşdirilməsi üzrə qurğularla təchiz edir.

2011-ci ildə sənaye təhlükəsizliyi və əməyin mühafizəsi xərcləri 2010-cu illə müqayisədə əhəmiyyətli dərəcədə artmış və 31 milyon manatdan çox olmuşdur.

Şirkətin əməyin mühafizəsi və sənaye təhlükəsizliyi sahəsində risklərin minimuma endirilməsi cəhdlərinə baxmayaraq 2011-ci ildə istehsalatda zədələnmələrin göstəriciləri artmışdır ki, bu da bədbəxt hadisələrin tezliyinin artmasından irəli gəlir. 2011-ci ildə bədbəxt hadisələr zamanı zərər çəkənlərin ümumi sayı 24 nəfər olmuş, bunlardan 14 nəfər isə tələf olmuşdur.






Belə vəziyyət heyətinin böyük hissəsi zərərli iş şəraitində çalışan iki iri sənaye müəssisəsinin ("Azəriqaz" İB və "Azərkimya" İB) ARDNŞ-nin tərkibinə daxil olması ilə bağlıdır. ARDNŞ bədbəxt hadisələrin yaranması probleminə tam ciddi yanaşır. Şirkətdə hər bir bədbəxt hadisənin ətraflı analizi aparılır və belə hadisələrin gələcəkdə təkrarlanmamasına yönələn tədbirlər icra olunur. 2011-ci ildə bədbəxt hadisələrin əsas səbəbləri təhlükəsizlik texnikasının pozulması və işçilərin ehtiyatsız hərəkət etməsi olmuşdur.

Əməyin mühafizəsi və sənaye təhlükəsizliyi sahəsində tələblər Şirkətin obyektlərində

**İnsan həyatının dənizdə mühafizəsi üzrə Təlim-Tədris Mərkəzi**

ARDNŞ-nin İnsan həyatının dənizdə mühafizəsi üzrə təlim mərkəzi regionda ən qabaqcıl mərkəzlərdən biridir və Dənizçilərin hazırlanması, sertifikatlaşdırılması və növbə çəkmələri haqqında Beynəlxalq konvensiyanın standartlarına uyğun olaraq, eləcə də Beynəlxalq Dəniz Təşkilatının tələbləri əsasında dənizçilərə və neftçilərə təhlükəsizliyin əsaslarının öyrədilməsini təmin edir. Təlim mərkəzində praktik məşğələlər həm açıq dənizdə, həm də subasma, yanğın və ya tüstülənmə hallarında görüləcək hərəkətlər üzrə hazırlıq keçmək imkanını yaradan yeni trenajorlarda keçirilir.

Bu gün Təlim-Tədris Mərkəzində 23 müxtəlif kurs və bunların sırasında gəmidə ilk tibbi yardım kursları və sürətli xilasedici qayıqla idarə edilən mütəxəssisin hazırlanması kursu üzrə təlim aparılır. Bundan əlavə, hazırda Təlim-Tədris Mərkəzində 2012-ci ilin sonunda fəaliyyətə başlaması planlaşdırılan ixtisaslaşmış hovuz tikilir. Hovuz dalğıcların hazırlanması üçün praktik məşğələlər və dənizdə həyat fəaliyyətinin təhlükəsizliyi kursunun keçirilməsi üçün nəzərdə tutulur. Nəzəri və praktik məşğələlərin birləşməsi materialın qavranılmasının səmərəsini maksimal dərəcədə artırmaq imkanını verir.



fəaliyyət göstərən bütün podratçılara da aid edilir. ARDNŞ-də qəbul olunmuş təhlükəsizlik texnikasının yerinə yetirilməsi, eləcə də xüsusi geyimdən və fərdi mühafizə vasitələrindən istifadə podratçıların işə buraxılmasının ayrılmaz şərtləridir.

Şirkətdə heyətə əməyin mühafizəsi və sənaye təhlükəsizliyi ilə bağlı məsələlərin öyrədilməsinə böyük diqqət yetirilir. Şirkətin bütün yeni işçiləri işə başlamazdan əvvəl mütləq sənaye təhlükəsizliyi, əməyin mühafizəsi və ətraf mühitin qorunması üzrə xüsusi tanışlıq treninqini keçirlər. Əməyin mühafizəsi məsələlərinin prioritetliyi haqqında Şirkətin işçi heyətinin məlumatlılığını artırmaq məqsədilə müntəzəm qaydada müxtəlif prezentasiya, treninq və seminarlar təşkil olunur. Bundan əlavə, hər bir müəssisədə əməyin mühafizəsinin öyrədilməsi üçün xüsusi təchiz edilmiş zallar vardır.

2011-ci ildə Şirkət yeni açılmış "Qala" Təlim - Tədris Mərkəzinin bazasında sağlamlıq və əməyin təhlükəsizliyi idarəsinin rəhbərliyi və işçilərinin təlimləndirilməsinə başlamışdır. Kurslarda işçilər Şirkətin təhlükəsizlik sistemi, Şirkətin obyektlərinə buraxılış qaydaları, yanğın təhlükəsizliyi və əməyin mühafizəsi qaydaları haqqında ümumi məlumat alır, habelə ilk tibbi yardım bacarıqlarına yiyələnir. Bundan əlavə Şirkətdə İnsan həyatının dənizdə mühafizəsi üzrə Təlim-Tədris Mərkəzi də fəaliyyət göstərir.






# Fəaliyyət göstərilən regionların həyatında iştirak və onların inkişafı

Şirkətin inkişafı fəaliyyət göstərilən regionlarda yaşayan insanların rifahı ilə ayrılmaz surətdə bağlıdır. Çoxsaylı sosial proqramların həyata keçirilməsi yolu ilə ARDNŞ iqtisadiyyatın diversifikasiyası, ölkənin tarazlı regional və davamlı sosial-iqtisadi inkişafı və Azərbaycanın əhalisinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına öz töhfəsini verir.

Sosial fəaliyyətin istiqamətləri dövlət siyasətinə uyğun olaraq, eləcə də Şirkətin cəmiyyətdə aparılan müsbət dəyişikliklərə maksimal dərəcədə kömək edə biləcəyi yerləri nəzərə alaraq seçilir.

Ənənəvi olaraq, ARDNŞ-nin sosial fəaliyyətində mədəniyyət və idmanın, səhiyyə və təhsilin, əhalinin zəif təbəqələrinin dəstəklənməsi və infrastrukturun inkişafına üstünlük verilir. Bundan əlavə, Şirkət sosial-iqtisadi inkişafın dövlət proqramlarına da dəstək verir. Bu proqramlardan biri 2009-2013-cü illərdə Azərbaycan Respublikasındakı regionların sosial-iqtisadi inkişafı proqramıdır. Proqram üç səviyyəli xarakter daşırır və ümumdövlət mahiyyətli tədbirlərə, Bakı və ətraf qəsəbələri əhatə edən layihələrə, ölkənin digər iqtisadi zonalarında həyata keçirilməsi nəzərdə tutulan tədbirlərə bölünür. Sahə baxımından proqrama on bir istiqamət daxildir ki, bunların sırasında vergi və pul-kredit siyasəti, sənaye və kənd təsərrüfatı həcmlərinin artması, ekologiya və təbii ehtiyatların istifadə edilməsi, yol təsərrüfatı və nəqliyyat, əlaqə xidmətlərinin yaxşılaşdırılması və əhalinin təhlükəsizliyi vardır. Bu proqram çərçivəsində ARDNŞ əhalinin qazla təmin edilməsi və fəaliyyət göstərdiyi regionların, o cümlədən Bakının infrastrukturunun bərpa edilməsi üzrə iri həcmli işlər görür.

Son illərdə mərkəzlərin təchizatı tam yenilənmişdir. Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun (Təhsil, elm və mədəniyyət məsələləri üzrə İslam təşkilatı) xoşməramlı səfiri və Parlament üzvü Mehriban Əliyevanın təşəbbüsü ilə, habelə ARDNŞ-nin maliyyə dəstəyi ilə Mərdəkan mərkəzi müasir standartlara uyğun olaraq tamamilə yenidən qurulmuşdur. Kitabxananın tutumu əhəmiyyətli həcmdə – 1000 oxucudan 6000-7000 oxucuya qədər artmışdır. Bərpa işlərinin həyata keçirilməsi üçün “Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



**Bakıda neft muzeyinin yaradılması**
2008-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ARDNŞ-nin üzərinə Bakıda neft muzeyinin yaradılması öhdəliyi qoyulmuşdur. Bunun üçün Şirkətdə işçi qrup yaradılmış, həmin qrupa Milli Elmlər Akademiyası, Mədəniyyət və Turizm Nazirliyi, İncəsənət Akademiyası və s. qurumlardan alim və mütəxəssislər daxil olmuşdur.
Neft muzeyinin layihə-dizayner konsepsiyasını müəyyən etmək üçün ABŞ, Almaniya, Fransa, Avstriya, Türkiyə, Yunanıstan və Azərbaycandan olan arxitektura şirkətlərinin iştirak etdiyi beynəlxalq tender keçirilmişdir. Hal-hazırda Şirkət podratçı ilə dizayner konsepsiyasının yaradılması üzrə danışıqlar aparır, eləcə də gələcək muzey üçün eksponatların toplanmasını həyata keçirir. Belə ki, Azərbaycan Respublikası FHN-in nəzdində olan institutlar ölkənin neft sənayesinin tarixinə aid olan 200 eksponatı artıq Neft muzeyinə vermişdir.
Neft muzeyinin yaradılmasından əlavə, 2009-cu ildə işçi qrupu "Branobel" şirkətinin yaradılmasının 130-cu ildönümünə həsr edilmiş "Nobellər və Bakı nefti" adlı kitabın dərc edilməsinə təşəbbüs göstərmişdir. 2010-cu ildə "Azərbaycan nefti" kitabı nəşr olunmuş və bir sıra tematik sənədli film çəkilmişdir. 2012-2013-cü illər ərzində Bakıda Nobel ailəsi cəmiyyəti, Stokholm biznes tarixi mərkəzi, Beynəlxalq Nobel təşkilatı kimi təşkilatların iştirakı ilə Nobel qardaşlarının yenilikçi tədqiqatlarının birinci konfransının keçirilməsi planlaşdırılır.

əsas olmuşdur. Şirkət uşaq, gənc və kütləvi idmanın inkişafına və region sakinlərinin idmanla məşğul olmaq imkanı ilə təmin edilməsinə xüsusi diqqət yetirir. İdman kompleksləri və meydançalarının yeniləşdirilməsinə, yeni idman avadanlığının alınmasına böyük vəsaitlər ayrılır.

Şirkət onun öz işçilərindən əlavə yaxın yaşayış məntəqələrinin sakinləri tərəfindən də istifadə edilən bir sıra sosial obyektin sahibidir. Belə obyektlərə ölkədə sağlam həyat tərzinin təşviq edilməsində əhəmiyyətli rolu olan "Neftyanik" və "Neftçi" idman-sağlamlıq mərkəzlər aiddir. Bu gün "Neftçi" mərkəzində uşaq və yeniyetmələr üçün peşəkar təlimçilərin rəhbərliyi altında 26 idman növü üzrə məşğələlər keçirilir. Mərkəzin bütün obyektləri yenidən qurulmuş və yenilənmişdir. Mərkəzin idman obyektlərinin tərkibinə Tofiq İsmayılov adına olimpiya hazırlıq mərkəzi, Qaradağ və İsmət Qayıbov adına idman kompleksləri, Şirvan, Pirallahı, Siyəzən və Qaraçuxur stadionları, "Məşəl" idman klubu, eləcə də "Azərneft" voleybol klubu daxildir. Mərkəzin obyektlərində təlim keçən idmançıların böyük qismi Azərbaycanı iri beynəlxalq yarışlarda, Olimpiya və Paraolimpiya oyunlarında təmsil edir. Belə ki, Azərbaycanlı cüdoçu Elnur Məmmədli 2008-ci ildə Olimpiya oyunlarında ölkəsinə ilk qızıl medal qazandırmışdır.



Şirkət ölkədə sağlam həyat tərzinin təbliğ edilməsinə xüsusi diqqət yetirir. ARDNŞ "Neftçi" Bakı futbol klubunun əsas sponsorlarından biridir. Bundan əlavə, Şirkət Respublikada futbolun inkişafına görə məsuliyyət daşıyan Azərbaycan Futbol Federasiyaları Assosiasiyasına (AFFA) yardım edir.

Köməyin göstərildiyi daha bir istiqamət – fəaliyyət

**Mərkəzi neftçilər xəstəxanasının inkişafı**

ARDNŞ-nin birbaşa maliyyə dəstəyi ilə Mərkəzi neftçilər xəstəxanası Azərbaycan Respublikasında ən yaxşı çoxprofilli tibb mərkəzlərindən biridir. Xəstəxanada əhaliyə yüksək ixtisaslı tibbi yardım göstərilir. Xəstəxananın tərkibinə “Neft daşları” tibb sanitariya hissəsi və 15 feldşer tibb məntəqəsi daxil olan poliklinika şöbəsi, 18 stasionar şöbə və köməkçi müalicə-diaqnostika hissəsi daxildir. Xəstəxananın ştatında 1200 nəfərdən çox işçi var, tutumu 496 çarpayı-yer təşkil edir. 2011-ci ildə xəstəxanaya 5398 pasiyent qəbul edilib və 2581 əməliyyat aparılıb.

Mərkəzi neftçilər xəstəxanasında göstərilən xidmətlərin keyfiyyəti Şirkətin işçilərinin və region sakinlərinin mənafeyi üçün ARDNŞ ilə xəstəxananın rəhbərliyi arasında aparılan çoxillik əməkdaşlığının nəticəsidir.



göstərilən regionlarda tibb sahəsinin inkişafına qoyulan investisiyalardır. Azərbaycanın müxtəlif regionlarında sakinlərə pulsuz yüksək ixtisaslı tibbi yardım göstərən müalicə-diaqnostika mərkəzləri fəaliyyət göstərir. Şirkətin balansında olan Mərkəzi Neftçilər xəstəxanası ARDNŞ-nin investisiyaları sayəsində açıq ürəkdə əməliyyatların və böyrək və qara ciyərin transplantasiyası üzrə əməliyyatların aparılması mümkün olan müasir çoxprofilli klinikadır. Bundan əlavə, “Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı” əsasında Şirkət müalicə-diaqnostika mərkəzlərinin tikintisini aparır. Belə mərkəzlərdən biri 2011-ci ilin iyul ayında Xızı rayonunda tikilmişdir. Layihənin dəyəri isə 7610 min manat olmuşdur. 2011-ci ilin dekabr ayında Qusar şəhərində mərkəzi xəstəxananın tikintisi başa çatmışdır.

Hal-hazırda Şirkətin balansında olan tibb müəssisələri Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin sərəncamına verilir. Bu addım tibb müəssisələri arasında sağlam rəqabət yaratmaq, bununla da həmin

**INEPO-EUROASIA beşinci Beynəlxalq ekoloji layihələr olimpiadasının keçirilməsi.**

2011-ci il ərzində Şirkət məktəblilər üçün müxtəlif ekoloji tədbirlər və bunların sırasında INEPO-EURAZIA beşinci Beynəlxalq ekoloji layihələr olimpiadasını təşkil etmişdir. Bu tədbirlə ARDNŞ ekoloji təhsilin inkişafına töhfə verərək uşaqların təbiətə qayğı ilə yanaşması ruhunda tərbiyə edilməsinə ictimaiyyətin diqqətini cəlb etməyə çalışır.

Şirkət INEPO-EUROASIA Beynəlxaq Ekoloji Layhələr olimiadasının əsas sponsorlarından biridir. ARDNŞ-nin iştirakı ölkənin həm daxilində, həm də xaricində Olimpiadaya diqqətin cəlb olunmasına səbəb olur. Tək bu ildə Azərbaycanın müxtəlif rayonlarını təmsil edən şagirdlər 83 medal qazanmışdır. Ümumiyyətlə, INEPO-EUROASIA Beynəlxalq ekoloji layhələr olimpiadasında 35 ölkədən olan şagirdlər iştirak etmişdir: Albaniya, İndoneziya, İran, Hindistan, Qazaxıstan, Gürcüstan, Litva, Makedoniya, Malayziya, Meksika, Nigeriya, Pakistan, Polşa, Rumıniya, Slovakiya, Türkiyə, Türkmənistan, Ukrayna və s. Müsabiqədə iştirak etmək üçün 400-dən çox layihə ərizə vermiş, bunlardan 115-i baxılmaq üçün qəbul edilmişdir.

müəssisələrin göstərdiyi xidmətlərin keyfiyyətini artırmaq məqsədilə atılmışdır. Bu keçid dövründə Şirkət regional və bələdiyyə büdcələrindən daxil olan maliyyələşdirməni tamamlamaqla

**Azərbaycan regionlarının qazla təchiz edilməsi**

| | 2009 | 2010 | 2011 |
|---|---|---|---|
| **Qazla təchiz edilmiş mənzil və mülklərin sayı** | 1 182 634 | 1 259 065 | 1 348 778 |
| **Təbii qazla təchiz etmə səviyyəsi, %** | 62.5 | 66.3 | 73.5 |
| **Regionların qazla təchiz edilməsi proqramı üzrə investisiyaların həcmi, mln manat** | 40.5 | 303.5 | 230.0 |

belə obyektləri dəstəkləməyi vacib hesab edir.

Şirkət ölkədə təhsilin inkişafını xüsusilə dəstəkləyir. ARDNŞ-nin maliyyə dəstəyi ilə Azərbaycanın müxtəlif bölgələrində bir sıra yeni məktəb tikilmiş və bərpa edilmişdir, bu isə 5800 şagirdə yeni təhsil ilini təmir edilmiş binalarda başlamaq imkanını yaratmışdır. Xüsusilə, 2011-ci ildə Binə qəsəbəsində xüsusi qazanxanası və transformator stansiyası olan 1040 şagirdi qəbul etməyə hazır yeni korpus tikilmişdir. Bu layihənin qiyməti 7333 min manat olmuşdur. Hal-hazırda ARDNŞ-nin təşəbbüsü ilə Bibiheybət rayonunda məktəbəqədər və məktəb yaşlı uşaqlar üçün müasir təhsil müəssisəsi olan Bakı İstedadlar Kompleksi tikilir. Kompleksin açılışı Neftçilər gününə həsr olunaraq 2012-ci ilin sentyabrında planlaşdırılır.

Dövlətin və Şirkətin müəssisələrinin ixtisaslı kadrlara ehtiyacı vardır, buna görə də Şirkət ali təhsil ocaqlarının məzunlarının bilik səviyyəsinin artırılması siyasətini həyata keçirir. ARDNŞ-də istedadlı tələbələrin dünyanın nüfuzlu universitetlərində təhsil almaq imkanını verən təqaüd proqramı yaradılmışdır. Bundan əlavə, 2010-cu ildən başlayaraq, Şirkətdə sənayenin energetika sektoruna maraq göstərən cavanlar üçün yay məktəbi təşkil olunur. Yay məktəbinin keçirilməsi haqqında məlumat “Personalın seçilməsi” fəslində göstərilir.

Elmi yarışların təhsilin inkişafı üçün mahiyyətini anlayaraq, Şirkət şagirdləri iri olimpiadalarda iştirak etməyə həvəsləndirir. 2005-ci ildən 2010-cu ilədək müddətdə ARDNŞ Türkiyə, Yunanıstan, Makedoniya, Serbiya, Cənubi Koreya, Rumıniya, Çin, Braziliya, Qazaxıstan və digər ölkələrdə müxtəlif elmi yarışlarda iştirak etmiş 250 şagirdə maddi yardım göstərmişdir. Ümumiyyətlə, şagirdlər 60-dan çox medal qazanmışdır.

Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində regional sosial layihələrin bir çoxuna qoşulmaqla Şirkət əhalinin həyat səviyyəsinin artırılması prosesində fəal iştirak edir. ARDNŞ ilk növbədə məktəblərin, istirahət və mədəniyyət parklarının aid edildiyi infrastruktur obyektlərinin bərpa edilməsini həyata keçirir. Bundan əlavə, ARDNŞ-nin vəsaitləri hesabına Azərbaycanın müxtəlif hissələrində uşaq





bağçalarının və uşaq evlərinin bərpa edilməsi və təmiri aparılır. Şirkətin struktur bölmələrinin himayəsində 40 məktəbəqədər tərbiyə müəssisəsi vardır ki, bunlardan neftçilərin uşaqları ilə yanaşı məcburi köçkünlərin və şəhidlərin uşaqları da istifadə edir. 12 uşaq bağçasında hal-hazırda təmir aparılır.

Şirkətin köməyi sayəsində Bakının parkları, mərkəzi küçələri və meydanları bərpa edilmişdir. Bundan əlavə, şəhərin mərkəzi küçələrində və prospektlərində yerləşən tarixi binaların fasadları bərpa edilmişdir. Bərpa zamanı qədim arxitektura ornamentlərinin qorunub bərpa edilməsinə xüsusi diqqət yetirilmişdir. Hal-hazırda Balakən və Qusar rayonlarında mövcud və yeni parkların bərpa edilməsi işləri aparılır.

2009-cu ildə "Azəriqaz" İB ARDNŞ-nin tərkibinə daxil olanda Şirkət əhalinin fasiləsiz qazla təmin edilməsi, respublikanın qaz təsərrüfatının idarə edilməsinin effektivliyinin artırılması, itkilərin sayının azalması və infrastrukturun modernizasiyası üzrə öhdəlikləri üzərinə götürmüşdür. "Azəriqaz" İB öz öhdəliklərini müvəffəqiyyətlə yerinə yetirir və bu günədək böyük işlər görmüşdür. Belə ki, 2011-ci ilin dekabr ayında Biləsuvar rayonunda Təzəkənd kəndinin sakinlərin təbii qazla təchiz edilməsi başlamışdır. 300 istehlakçısı olan kəndə qazın çəkilməsi üçün saxlayıcı klapanlarla və ölçmə cihazları ilə təchiz edilmiş 9000 km-dən çox borular quraşdırılmışdır. Qazın çəkilməsinin ikinci mərhələsi 2012-ci ildə başa çatacaq, bu da kənd sakinlərini qazla tam təchiz etməyə imkan verecəkdir. Bundan əlavə, 2011-ci ildə Tərtər rayonunun Qapanlı kəndinə və Yevlax rayonunun Salahlı kəndləri də qaz ilə təchiz edilmişdir.



2012-ci ildə Şirkət 800-dən çox obyektin qazla təchiz edilməsini həyata keçirməyi və 80% qazlaşdırma səviyyəsinə nail olmağı planlaşdırır. 2013-cü ilin sonunda ölkə əhalisinin qazla təmin edilməsi səviyyəsinin 95%-ə çatdırılması planlaşdırılır.

Regional sosial layihələrin siyahısına yerli əhalinin içməli su ilə təmin edilməsini əlavə etmək olar. Bu məqsədlə Şirkət Balakən rayonunda beş, Zaqatala rayonunda dörd və Ağsu rayonunda yeddi artezian quyusu qazmışdır. Bundan əlavə Şirkət Şamaxı, Lerik, Xudat, Qusar, Şəki, Şəmkir və Füzuli rayonlarında yerləşən şəhərlərdə artezian quyular qazıb istismara vermişdir.



# Əhalinin zəif qruplarına yardım

ARDNŞ-nin xeyriyyə fəaliyyətinin əsas istiqamətləri ağır xəstəlikləri olan uşaqlara, valideyn himayəsindən məhrum olmuş yetimlərə, aztəminatlı və çoxuşaqlı ailələrə, veteranlara, əlillərə və qaçqınlara təyinatlı maddi yardım etməkdir.

Qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə dövlət proqramına uyğun olaraq Şirkət Dördyol 1,2 və Təzəkənd məntəqələrində, Tərtər şəhərində, Əhmədəli, Mirzənağılı və Qazaxlar kəndlərində yaşayan qaçqın ailələrinə, eləcə də Sumqayıt şəhərində yaşayan məcburi köçkün və şəhid ailələrinə xeyriyyə yardımını göstərir. Maliyyə yardımından əlavə ARDNŞ insanları ərzaqla təchiz edir və mənzillərlə təmin edir. Həmçinin, Şirkət qaçqınların öz obyektlərində işlə təmin olunmasına kömək göstərir. 2011-ci ilin sonuna qaçqın ailələrindən olan 3000-dən çox insan Şirkətdən iş təklifi almışdır. Qaçqınların yaşadığı ərazidə fəaliyyət göstərən uşaq bağçalarına da təyinatlı maddi yardım göstərilir.

Şirkət kimsəsiz uşaqlara xüsusi diqqət yetirir: təhsil almağa kömək edir, mənzillə təmin edir, öz müəssisələrində işlə təmin edir

**“Mərhəmətli olmağa tələsin!” xeyriyyə aksiyasının keçirilməsi**

2011-ci ilin sonunda “Azərkimya” İB-nin təşəbbüsü ilə Sumqayıt şəhərində “Mərhəmətli olmağa tələsin!” xeyriyyə aksiyası keçirilmişdir. Xeyriyyə aksiyasının məqsədi aztəminatlı ailələrə, əlil uşaqlara, tənha və yaşlı insanlara qayğı göstərmək, onlara maddi və mənəvi dayaq olmaqdır.

Aksiya çərçivəsində ehtiyacı olan məktəb şagirdlərinə, 300-dən çox aztəminatlı ailədən olan uşaqlara və yetim uşaqlara geyim, məktəb ləvazimatı və digər əşyalar paylanmışdır. Qaçqınlara və məcburi köçkünlərə yığılmış qış geyim komplektləri paylanmışdır.

Bu aksiyanın davamı olaraq keçirilmiş daha bir xeyriyyə tədbirində əlillərə müasir, istifadəsi rahat olan əlil arabaları paylanmışdır.

Aksiyanın 2012-ci ildə davam etdirilməsi qərara alınmışdır.

**Naxçıvanda ürək əməliyyatının aparılması üzrə xeyriyyə aksiyası**

ARDNŞ-nin dəstəyi ilə 2011-ci ilin may ayında artıq dördüncü dəfə açıq ürəkdə əməliyyatın aparılması üzrə xeyriyyə aksiyası keçirilmişdir. Əməliyyatlar Mərkəzi Neftçilər xəstəxanasının ürək-damar xəstəliklərinin 35 nəfərlik yüksək ixtisaslı kardio-cərrahlar briqadası tərəfindən aparıldı. Bu il əməliyyatlar Naxçıvanın 20 sakinində, o cümlədən arasında yaşı birdən ikiyədək olan anadangəlmə ürək çatışmazlığından əziyyət çəkən uşaqlarda da aparılmışdır.

# Hesabatın GRI Təlimatına uyğunluğu cədvəli

| GRI indeksi | Göstəricinin adı | Hesabatın bölməsi | Göstəricinin açıqlaması | Şərhlər və digər mənbələrə istinadlar |
|---|---|---|---|---|
| 1.1. | Hesabatı dərc edən təşkilatda qərarlar qəbul edən ən yuxarı şəxsin davamlı inkişafın təşkilat və onun strategiyası üçün əhəmiyyəti haqqında bəyanatı | ARDNŞ Prezidenti cənab Rövnəq Abdullayevin müraciəti | + | |
| 2.1. | Təşkilatın adı | 1. Şirkət haqqında | + | |
| 2.2. | Əsas brendlər, məhsul və/və ya xidmət növləri | 1. Şirkət haqqında | + | |
| 2.3. | Təşkilatın funksional strukturu | 1. Şirkət haqqında | + | |
| 2.4. | Təşkilatın qərargahının yeri | 1. Şirkət haqqında | + | |
| 2.5. | Şirkətin fəaliyyət göstərdiyi ölkələrin sayı və əsas fəaliyyətin həyata keçirildiyi və ya hesabatın əhatə etdiyi davamlı inkişaf məsələləri baxımından xüsusi əhəmiyyəti olan ölkələrin adları | 1. Şirkət haqqında | + | |
| 2.6. | Mülkiyyətin xarakteri və təşkilati-hüquqi forma | 1. Şirkət haqqında | + | |
| 2.7. | Təşkilatın iş gördüyü bazarlar | 1. Şirkət haqqında | + | |
| 2.8. | Təşkilatın həcmi | 1. Şirkət haqqında | + | |
| 2.9. | Hesabat dövrü ərzində həcmdə, strukturda və ya mülkiyyətdə baş vermiş əhəmiyyətli dəyişikliklər | 1. Şirkət haqqında | + | |
| 2.10. | Hesabat dövründə alınmış təltiflər | | + | 2011-ci ildə ARDNŞ davamlı inkişaf sahəsində fəaliyyətlə bağlı təltiflər almamışdır |
| 3.1. | Təqdim olunmuş məlumatın aid olduğu hesabat dövrü (məsələn, maliyyə/təqvim ili) | Hesabat haqqında | + | |
| 3.2. | Əvvəlki hesabatlardan hər hansı birinin dərc edildiyi tarix (dərc edilmişdirsə) | | + | ARDNŞ ilk dəfə davamlı inkişaf haqqında hesabat buraxır |
| 3.3. | Hesabatların dövriliyi | Hesabat haqqında | + | |
| 3.4. | Hesabat və ya onun məzmunu ilə bağlı məsələlər üçün əlaqə məlumatı | Əlaqə məlumatı | + | |
| 3.5. | Hesabatın məzmununun müəyyən edilməsi prosesi | Hesabat haqqında | + | |
| 3.6. | Hesabatın hədləri | Hesabat haqqında | + | |
| 3.7. | Hesabatın əhatə dairəsi və ya hədlərinin müəyyən edilməsi | Hesabat haqqında | + | |
| 3.8. | Hesabata müştərək müəssisələr, istehsalatların icarəsi, bəzi funksiyaların xarici podratçılara və digər təşkilati vahidlərə tapşırılması haqqında əvvəlki hesabatlarla və/və ya digər təşkilatlarla müqayisəliliyə əhəmiyyətli təsir göstərə bilən məlumatların hesabata daxil edilməsi üçün əsaslar | Hesabat haqqında | + | |
| 3.10. | Əvvəlki hesabatlarda göstərilmiş məlumatın hər hansı şəkildə yenidən ifadə edilməsinin əhəmiyyətinin, eləcə də yenidən ifadə etmə üçün əsasların açıqlanması | Aidiyyəti yoxdur | + | ARDNŞ ilk dəfə davamlı inkişaf haqqında hesabat buraxır |
| 3.11. | Hesabatda tətbiq edilmiş əhatə dairəsi, hədlər və ya ölçmə metodlarında əvvəlki hesabat dövrləri ilə müqayisədə əhəmiyyətli dəyişikliklər | Aidiyyəti yoxdur | + | ARDNŞ ilk dəfə davamlı inkişaf haqqında hesabat buraxır |
| 3.12. | Hesabatda standart elementlərin yerini göstərən cədvəl | Hesabatın GRI | + | |

| GRI indeksi | Göstəricinin adı | Hesabatın bölməsi | Göstəricinin açıqlaması | Şərhlər və digər mənbələrə istinadlar |
|---|---|---|---|---|
| | | təlimatına uyğunluğu cədvəli | | |
| 4.1. | Ali rəhbər orqanın tərkibində konkret məsələlər, misal üçün strategiyanın işlənib hazırlanmasına və ya təşkilatın fəaliyyəti üzrə ümumi nəzarətə görə cavabdeh olan əsas komitələr də daxil olmaqla təşkilatın idarəetmə strukturu | 2.1. Davamlı inkişaf sahəsində strategiya və idarəetmə | + | |
| 4.2. | Ali rəhbər orqanın sədrinin eyni zamanda şirkətin icraçı rəhbəri olub-olmadığını göstərin | 2.1. Davamlı inkişaf sahəsində strategiya və idarəetmə | + | |
| 4.3. | Vahid direktorlar şurası olan təşkilatlar üçün Ali rəhbər orqanın müstəqil üzvlərinin və/və ya şirkətin icraçı rəhbərliyinə aid olmayan üzvlərin sayını göstərin | Aidiyyəti yoxdur | + | |
| 4. | Təşkilatın səhmdarlarının və ya əməkdaşlarının Ali rəhbər orqanın fəaliyyətini istiqamətləndirmək və ya ona tövsiyələr vermək üçün istifadə etdiyi mexanizmlər | Aidiyyəti yoxdur | + | |
| 4.8. | Təşkilatın daxilində işlənib hazırlanmış missiya və dəyərlər haqqında bəyanatlar, korporativ davranış məcəllələri və iqtisadi, ekoloji və sosial məhsuldarlıq nöqteyi-nəzərindən əhəmiyyətli olan prinsiplər, eləcə də bunların təcrübədə həyata keçirilə bilməsinin dərəcəsi | 2. Davamlı inkişafa yanaşma | + | |
| 4.14. | Təşkilatın qarşılıqlı əlaqə yaratdığı maraqlı tərəflərin siyahısı | 2.3. Maraqlı tərəflərlə qarşılıqlı əlaqə | + | |
| 4.15. | Gələcəkdə qarşılıqlı əlaqə yaratmaq məqsədilə maraqlı tərəflərin müəyyən edilməsi və seçilməsi üçün əsaslar | 2.3. Maraqlı tərəflərlə qarşılıqlı əlaqə | + | |
| **İqtisadi göstəricilər** | | | | |
| EC1 | Yaradılmış və bölüşdürülmüş birbaşa iqtisadi dəyər, o cümlədən gəlirlər, əməliyyat məsrəfləri, əməkdaşlara ödənişlər, cəmiyyətlərə ianələr və digər investisiyalar, bölüşdürülməmiş mənfəət, kapital təchizatçılarına və dövlətlərə ödənişlər. | 1. Şirkət haqqında | + | |
| **Ekoloji göstəricilər** | | | | |
| EN8 | Götürülən suyun ümumi həcmi, mənbələr üzrə bölməklə | 4.3. Sudan istifadə və su obyektlərinə təsir | + | |
| EN10 | Dəfələrlə və təkrar istifadə olunan suyun payı və ümumi həcmi | 4.3. Sudan istifadə və su obyektlərinə təsir | + | |
| EN16 | İstixana effekti yaradan qazlarının tam birbaşa və dolayı tullantıları, çəkini göstərməklə | 4.2. Atmosferə təsir | + | |
| EN18 | İstixana effekti yaradan qazları tullantılarının azaldılması üzrə təşəbbüslər və əldə olunmuş azalma | 4.2. Atmosferə təsir | + | |
| EN20 | Atmosferə NOx, Sox və digər əhəmiyyətli çirkləndirici maddələrin buraxılması, növ və çəkini göstərməklə | 4.2. Atmosferə təsir | + | |
| EN22 | Tullantıların ümumi həcmi, növlərə və dövriyyə üsullarına bölməklə | 4.4. Tullantıların idarə edilməsi və torpaqların mühafizəsi | + | |
| **Əməyin təşkili sahəsində göstəricilər** | | | | |
| LA2 | Əməkdaşların ümumi sayı və kadrların axını, yaş qruplarına, cinslərə və regionlara bölməklə | 5.1. Personalın seçilməsinə | ± | |

| GRI indeksi | Göstəricinin adı | Hesabatın bölməsi | Göstəricinin açıqlaması | Şərhlər və digər mənbələrə istinadlar |
|---|---|---|---|---|
| | | yanaşma | | |
| LA4 | Əmək müqavilələri ilə əhatə olunmuş əməkdaşların payı | 2.3. Maraqlı tərəflərlə qarşılıqlı əlaqə<br>5.4. İşçilərin hüquqlarının təmin edilməsi | + | |
| LA7 | İstehsalat travmatizminin səviyyəsi, peşəkar xəstəliklərin səviyyəsi, itirilmiş günlər əmsalı və iş yerində olmama əmsalı, eləcə də işlə bağlı ölüm hallarının ümumi sayı, regionlar üzrə bölməklə | 5.6. Təhlükəsiz əmək şəraitinin təmin edilməsi | + | |
| LA11 | Əməkdaşların məşğulluq qabiliyyətini dəstəkləmək, eləcə də karyeranın başa çatdırılmasında onlara dəstək vermək üçün nəzərdə tutulmuş ömür ərzində bacarıqların və təhsilin inkişafı proqramları | 5.5. Heyətin təlimləndirilməsi və inkişafı | + | |
| LA14 | Kişi və qadınların baza əmək haqqının nisbəti, işçilərin kateqoriyaları üzrə bölməklə | | + | Bütün kateqoriyalardan olan kişi və qadın işçilərin baza maaşları fərqlənmir. |
| **İnsan hüquqları sahəsində göstəricilər** | | | | |
| HR4 | Ayrı-seçkilik hallarının ümumi sayı və görülmüş tədbirlər | | + | Şirkət öz fəaliyyətini istənilən formada insan hüquqlarının pozulmasına yol verilməməsi üzrə qanunvericiliyin tələbləri əsasında qurur. 2011-ci ildə ARDNŞ-də insan hüquqlarının pozulması və / və ya işçilərin diskriminasiyası ilə bağlı heç bir hal qeydə alınmamışdır. |
| HR6 | Uşaq əməyinin istifadə edilməsi hallarının əmələ gəlməsi ilə bağlı əhəmiyyətli risk yaradan fəaliyyət və uşaq əməyinin aradan qaldırılmasında iştirak etmək üçün görülmüş tədbirlər | | + | Şirkət uşaq əməyinin istifadə edilməsi riski ilə bağlı olan fəaliyyət həyata keçirmir. |
| HR7 | Məcburi əməyin istifadə edilməsi hallarının əmələ gəlməsi ilə bağlı əhəmiyyətli risk yaradan fəaliyyət və məcburi əməyin aradan qaldırılmasında iştirak etmək üçün görülmüş tədbirlər | | + | Şirkət məcburi əməyin istifadə edilməsi riski ilə bağlı olan fəaliyyət həyata keçirmir. |
| HR9 | Yerli və azsaylı xalqların hüquqlarına toxunan pozuntu hallarının ümumi sayı və görülmüş tədbirlər | | + | ARDNŞ-də yerli və azsaylı xalqların hüquqlarına aid olan pozuntular qeydə alınmayıb. |
| **Cəmiyyətlə qarşılıqlı əlaqə sahəsində göstəricilər** | | | | |
| SO3 | Təşkilatın Korrupsiyaya qarşı siyasət və prosedurları üzrə təlim keçmiş əməkdaşların payı | | + | 2011-ci ildə korrupsiyaya qarşı korporativ prosedurlar olmadığından, treninqlər aparılmamışdır. 2012-ci ildə Şirkətin Şurası və departament rəhbərləri üçün Şirkətin korrupsiyanın və saxtakarlığın qarşısının alınması ilə bağlı siyasəti üzrə treninqlərin keçirilməsi planlaşdırılır. |

| GRI indeksi | Göstəricinin adı | Hesabatın bölməsi | Göstəricinin açıqlaması | Şərhlər və digər mənbələrə istinadlar |
|---|---|---|---|---|
| SO4 | Korrupsiya hallarına cavab olaraq görülmüş tədbirlər | Korporativ etika | + | Korrupsiya halları qarşıya çıxanda Şirkət ölkənin əmək qanunvericiliyinə uyğun olaraq hərəkət edir. 2011-ci ildə Şirkətdə iki korrupsiya halı üzə çıxarılmışdır. Tədqiqat nəticəsində Şirkətin Prezidenti üçün hesabat hazırlanmış, işlər isə pozanları məsuliyyətə cəlb etmək üçün hüquq mühafizə orqanlarına verilmişdir. |
| SO5 | Dövlət siyasətinə qarşı mövqe, dövlət siyasətinin formalaşmasında iştirak və lobbiləşdirmə | | + | 2011-ci ildə Şirkətin Azərbaycan qanunvericiliyinin təkmilləşdirilməsində fəal iştirakı nəticəsində ölkənin vergi məcəlləsinə dəyişikliklər edilmiş, habelə yeni gəmiqayırma zavodunun tikintisi üçün qanunvericilikdə güzəştlər əldə edilmişdir. |
| PR1 | Yaxşılaşdırma imkanlarının müəyyən edilməsi üçün səhhətə və məhsul və xidmətlərin təhlükəsizliyinə göstərilən təsirin qiymətləndirildiyi həyat siklinin mərhələləri və həmin prosedurlardan keçməli olan əhəmiyyətli məhsul və xidmətlərin payı | | + | Neft emalı məhsullarının təhlükəsizliyi xüsusi tələblərlə nizamlanır və Şirkət həmin tələbləri məhsulu layihələşdirdiyi zaman nəzərə alır. |
| PR3 | Məhsul və xidmətlərin xüsusiyyətləri haqqında prosedurların tələb etdiyi məlumat növləri və belə tələblərin aid olduğu əhəmiyyətli məhsul və xidmətlərin payı | | + | Neft məhsullarının təhlükəsizlik standartlarına uyğunluğu eləcə də məhsullarla təhlükəsiz davranış haqqında məlumatın təqdim edilməsi üzrə fəaliyyətini Şirkət müvafiq qanunvericiliyin tələbləri əsasında qurur. |

**GRI Göstəricilərinin hesabatda əks olunması**

| | |
|---|---|
| + | Tam. |
| ± | Qismən. |

## Terminlər və ixtisarlar

| | |
|---|---|
| BO | Baş ofis |
| QEZ | Qaz emalı zavodu |
| NQÇİ | Neft-qaz çıxarma idarəsi |
| NQEZ | Neft-qaz emalı zavodu |
| İB | İstehsalat birliyi |
| KİV | Kütləvi informasiya vasitələri |